RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 117 (8433) ŞƏNBƏ, 20 iyun 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İLHAM ƏLİYEV Paşinyanı yenə rəzil etdi

## Azərbaycanın hücum diplomatiyası Ermənistanı dalana dirəyib

**Azərbaycan işğalçı Ermənistana diplomatiya müstəvisində də böyük zərbələr vurmaqda, bu ölkənin siyasi iflasını uğurla həyata keçirməkdədir. İlham Əliyevin iştirakı ilə keçirilən tədbirlər, sammitlərdə Ermənistanın işğalçılıq siyasəti ifşa olunub, rəhbəri çıxılmaz vəziyyətə salınıb və dünya erməniliyinin əsl məkrli mahiyyəti faktlarla göstərilib. Şərq Tərəfdaşlığı ölkələrinin, MDB dövlət başçılarının sammitlərində, Münxen Təhlükəsizlik Konfransında və digər nüfuzlu tədbirlərdə baş verənlər bunun real təsdiqidir.**

Ermənistan növbəti belə diplomatik zərbəni Avropa İttifaqına üzv dövlətlərin və Şərq Tərəfdaşlığı ölkələrinin dövlət və hökumət başçılarının videokonfrans formatında keçirilən sammitində aldı. Prezident İlham Əliyev konkret faktlar əsasında Ermənistanın baş naziri Nikol Paşinyanı növbəti dəfə yerində oturtdu.

### "Dağlıq Qarabağ Azərbaycandır"

Bu dəfə də Azərbaycan Prezidentinin Qarabağla bağlı qətiyyətli mövqeyi Nikol Paşinyana, bütünlükdə erməni ictimaiyyətinə, həmçinin bu işğalçıların havadarlarına olduqca layiqli bir cavab oldu. Dövlət başçısı çıxış edərək Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalını davam etdirdiyini, Dağlıq Qarabağ və Azərbaycanın daha 7 rayonunun 30 ilə yaxındır ki, Ermənistanın işğalı altında olduğunu bəyan etdi: "Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən qeyd-şərtsiz və tam çıxarılmasını tələb edir. Ermənistan bu qətnamələrə, habelə ATƏT, Qoşulmama Hərəkatı, NATO, Avropa Parlamenti və digər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş müvafiq sənədlərə əməl etmək əvəzinə işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Danışıqların mahiyyət və formatını məhv etməyə çalışan Ermənistanın baş nazirinin dediyinin əksi olaraq Dağlıq Qarabağ Ermənistan deyil, Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır".

Xatırladaq ki, Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanan tərəfdaşlıq prioritetləri sənədində Avropa İttifaqı tərəfindən Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə dəstək ifadə edilib. İki il öncə isə NATO-ya üzv ölkələrin liderlərinin Brüssel sammitinin yekunlarına dair bəyannaməsində yer alanlar da Ermənistan üçün daha bir diplomatik zərbə olmuşdu. Burada qəbul edilən yekun kommunikedə Azərbaycanın ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının xüsusi olaraq qeyd edilməsi ölkəmizin diplomatik uğuru idi.

### Erməni terroru ilə bağlı daha bir ifşaedici fakt

Yeri gəlmişkən qeyd edək ki, erməni terroru ilə bağlı daha bir ifşaedici fakt da Prezident İlham Əliyev tərəfindən yenidən diqqət mərkəzinə gətirildi. Videokonfransda Ermənistanın baş naziri Nikol Paşinyan Prezident İlham Əliyevin çıxışından sonra iddia etdi ki, guya Avropa İnsan Hüquqları Məhkəməsi Azərbaycanın öz ərazisində ermənilərə qarşı irqçi siyasət həyata keçirməsinə dair qərar verib. Bu arada Nikol Paşinyanın isterik vəziyyətdə həm ingilis, həm də erməni dilində danışması konfrans iştirakçılarının çaşqınlığına səbəb oldu.

Ardı 2-ci səh.

## Göygöl rayonunun Gəncə-Kəlbəcər-Laçın (14 km)-Aşıqlı-Keşkü-Üçbulaq-Üçtəpə-Firuzabad avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İyirmi dörd min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Gəncə-Kəlbəcər-Laçın (14 km)-Aşıqlı-Keşkü-Üçbulaq-Üçtəpə-Firuzabad avtomobil yolunun tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 9,6 milyon (doqquz milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2020-ci il*

## Azərbaycan Prezidenti ölkəmizin mövqeyini bütün platformalarda ən yüksək səviyyədə və cəsarətlə müdafiə edir

**İyunun 19-da Milli Məclisin növbədənkənar sessiyasının növbəti iclası keçirildi. Milli Məclisin Sədri Sahibə Qafarova əvvəlcə Şərq Tərəfdaşlığı ölkələrinin iyunun 18-də videokonfrans formatında keçirilən sammiti ilə bağlı fikirlərini bildirdi.**



### Ermənistanın baş naziri yenə də aciz vəziyyətə düşdü

"Avropa İttifaqı ilə əməkdaşlıq ölkəmizin xarici siyasətinin əsas prioritetlərindən biridir. Bu təşkilatın 9 üzv ölkəsi ilə Azərbaycan strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb. Möhtərəm Prezident İlham Əliyev sammitdə vurğuladı ki, biz artıq Avropa İttifaqı ilə yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqların yekun mərhələsindəyik, mətnin 90 faizi artıq razılaşdırılıb", - deyən Sahibə Qafarovanın sözlərinə görə, belə bir mərhələdə sammitin keçirilməsi Avropa İttifaqı ilə Azərbaycan arasındakı münasibətlərin gələcək inkişafı baxımından çox əhəmiyyətlidir.

Spiker vurğuladı ki, cənab Prezidentin çıxışında diqqətçəkən ikinci bir məqam növbəti dəfə işğalçı Ermənistanın baş nazirini ifşa etməsi oldu. Möhtərəm Prezident Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli barədə ölkəmizin qəti və ədalətli mövqeyini bir daha beynəlxalq ictimaiyyətə çatdırdı. Dövlət başçısı Ermənistan hakimiyyətinin danışıqları pozmaq cəhdlərini açıq mətnlə ifşa edərək, dedi ki, Ermənistan beynəlxalq təşkilatlar tərəfindən münaqişəyə dair qəbul edilmiş müvafiq sənədlərə əməl etmir və işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşma siyasəti həyata keçirir. Ermənistan danışıqların mahiyyətini və formatını məhv etməyə çalışır.

Sədr qeyd etdi ki, Azərbaycan Prezidentinin səsləndirdiyi təkzibedilməz faktlar və dəlillər qarşısında Ermənistanın baş naziri yenə də beynəlxalq ictimaiyyətin gözü önündə aciz vəziyyətə düşdü. Möhtərəm Prezident İlham Əliyevin irqçilik və terrorizmlə bağlı məsələlər ətrafında müzakirə gedəndə "ona sakit oturmağı tövsiyə edərdim" deməsi həm də Ermənistanın işğalçılıq siyasətinin, terrorizmi dəstəkləməsinin ifşası oldu. Nikol Paşinyan isə daha bir beynəlxalq səviyyəli tədbirdə Azərbaycan Prezidentinin tarixi həqiqətə əsaslanan faktları qarşısında heç bir cavab verə bilmədi. Bunu işğalçı dövlətin aldığı növbəti diplomatik zərbə kimi dəyərləndirmək olar.

Sədr daha sonra dedi ki, hələ ötən ilin oktyabr ayında Rusiyanın Soçi şəhərində "Valday" Diskussiya Klubunun toplantısında, daha sonra Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının iclasında, bu ilin fevral ayında isə Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən müzakirələrdə möhtərəm Prezidentimiz öz zəngin biliyi və cəsarəti ilə işğalçı ölkəni ifşa etmişdi.

Ardı 2-ci səh.



## 9 gündə 3 yeni yarımstansiya

Bu il iyun ayının birinci yarısında Prezident İlham Əliyevin iştirakı ilə ölkədə üç yeni elektrik yarımstansiyası istifadəyə verilib. Bunlardan ikisi dövlət başçısının Tərtər və Ağcabədi bölgələrinə səfəri çərçivəsində iyunun 3-də açılıb, üçüncüsü isə paytaxtın Xətai rayonunda iyunun 11-də istismara daxil olub.

Beləliklə, Azərbaycanda cəmi 9 gün ərzində əhaliyə daha 3 yeni yarımstansiya xidmət etməyə başlayıb. Bu da ölkəmizin elektrik enerjisi sisteminin gündən-günə daha da gücləndiyinin, keyfiyyətli və dayanıqlı olduğunun aydın göstəricisidir.

Regionların sosial-iqtisadi inkişafına yönəldilən birinci dövlət proqramının həyata keçirilməsinə başlandığı vaxtdan Azərbaycanda əhalinin və iqtisadiyyatın elektrik enerjisi ilə təminatı sahəsində də genişmiqyaslı işlər görülüb.

Ardı 4-cü səh.

Felyeton

## VİRUSA ÇEVRİLƏN İNSAN

### BUNUN SİMPTOMLARI MƏSULİYYƏTSİZLİK, QURU TƏKƏBBÜR, YALANÇI QORXMAZLIQ, BAŞQALARININ SAĞLAMLIĞINA VƏ HƏYATINA QƏDDARCASINA LAQEYD MÜNASİBƏTDİR

*Aylardır ki, dünya koronavirusun əlində girinc qalıb!*

*Daha əvvəlki qaydada yaşamaq, işləmək və illər boyu vərdiş etdiyin tək davranmaq mümkün deyil!*

*Dərhal COVID -19 yaxandan yapışaraq səni dara çəkir!*

*Həm də təkcə səni yaxalamaqla kifayətlənmir, səni özünün yayıcısına, virus daşıyıcısına və insanların qəniminə çevirir!*

**Bircə əl tutmaq, mehribanlıq əlaməti sayılan öpüşmək (kişilər və qadınlar arasında), nəfəs-nəfəsə dayanmaq, iki metr məsafədən yaxınlıqda asqırmaq və ya öskürmək, qapalı yerdə qoruyucu maskasız oturmaq kifayətdir ki, bir virus daşıyıcısı gün ərzində onlarca şəxsi yoluxdursun!**

**Sonra həmin onlarca nəfər virus daşıyıcısına və yayıcısına çevrilir: bilərəkdən və yaxud bilməyərəkdən!**

Fərqi yoxdur!

Nəticə eynidir!

Sən artıq başqasının sağlamlığına son qoydun!

Bu insan ailə üzvün, doğman, qohumun, yaxının, dostun, qonşun, iş yoldaşın, yaxud tanımadığın birisi də ola bilər!

**Səbəbkar sənsən!**

**Əvvəlcə özünü qorumadığına, sonra isə infeksiya yayıcısına, virus daşıyıcısına çevrildiyinə görə!**

**Virus insana çevrildiyinə görə!**

Ardı 5-ci səh.



## Koronavirusa yoluxmaların artımı sərt karantin rejiminin tətbiqini qaçılmaz edir

Dünyanın kabusuna çevrilmiş COVID-19 altı aydır bəşəriyyəti iflic vəziyyətdə saxlayır. Bir yandan ölkələr infeksiyanın yayılmasının qarşısının alınması üçün müxtəlif tibbi-profilaktik tədbirlər həyata keçirir, dövlət rəhbərləri vətəndaşlarını qorumaq üçün lazımi addımlar atır.

Digər yandan isə dünyanın müxtəlif elmi laboratoriyaları COVID-19-u məhv edəcək peyvənd axtarışındadır. Bu istiqamətdə müsbət nəticələr əldə olunsa da, pandemiyanın qarşısını ala biləcək peyvənd hələ ixtira olunmayıb. Bu isə o deməkdir ki, planetimiz "taclı" bəla ilə təhlükədə qalmaqda davam edir. Azərbaycan infeksiyanın xaricdən idxalının qarşısını almaq üçün dövlət sərhədlərini bağladı. Ölkədə yanvar ayından etibarən virusun yayılmasının qarşısının alınması üçün çevik, qabaqlayıcı tədbirlər görülməyə başlandı.

Ardı 5-ci səh.

## Azərbaycan son texnologiyaların tətbiqinə üstünlük verir

### Prezident İlham Əliyevin bu istiqamətdə gördüyü işlər dünyada yüksək qiymətləndirilir

**Xəbər verildiyi kimi, iyunun 16-da "Microsoft" şirkətinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə şirkətin vitse-prezidenti Filip Roq, Mərkəzi və Şərqi Avropa bölgələrinin korporativ əlaqələr və hüquqi məsələlər üzrə rəhbəri Nanna-Luize Linde və "Microsoft" şirkətinin digər nümayəndələri arasında videokonfrans keçirilib.**

Bu gün Azərbaycan beynəlxalq bankların və digər maliyyə qurumlarının, eləcə də dünyanın nüfuzlu transmilli şirkətlərinin maraq dairəsindədir. Onların hamısı ölkəmizlə əməkdaşlıq etməkdən məmnundur. Səbəbi isə dövlətimizin başçısının dəfələrlə bəyan etdiyi kimi, Azərbaycanda hökm sürən siyasi sabitlik və dinamik iqtisadi inkişafdır.

Koronavirus pandemiyası dünyanın inkişaf etmiş ölkələrinin iqtisadiyyatını çökdürdüyü halda, bu, Azərbaycanda məhsul istehsalının minimum şəkildə azalması ilə müşahidə edilir. Yəni inkişaf davam edir, sadəcə, məhsul istehsalının həcmi azalır. Bununla yanaşı, ölkəmizin kifayət qədər valyuta ehtiyatı var və heç bir beynəlxalq maliyyə qurumundan asılacağımız yoxdur. Buna görə də bu qurumlarla səmərəli və bərabərhüquqlu əməkdaşlıq etmək imkanımız var. Dünyanın nüfuzlu maliyyə qurumlarının və transmilli şirkətlərinin pandemiya dövründə ölkəmizlə əməkdaşlığa can atması da bununla bağlıdır.

Azərbaycanın bu səviyyəyə qalxması Prezident İlham Əliyev tərəfindən aparılan uğurlu iqtisadi siyasətinin nəticəsidir. Xüsusilə həyata keçirilən iqtisadi islahatlar ölkənin hərtərəfli inkişafını təmin edir.

Ardı 4-cü səh.

# Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndinə uyğun olaraq **qərara alır:**

Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə aşağıdakı dəyişikliklər edilsin:

1. Babək qəsəbə inzibati ərazi dairəsi tərkibindəki Babək qəsəbəsinə şəhər statusu verilsin, Babək qəsəbə inzibati ərazi dairəsi Babək şəhər inzibati ərazi dairəsi hesab edilsin.
2. Cəhri kənd inzibati ərazi dairəsi tərkibindəki Cəhri kəndinə qəsəbə statusu verilsin, Cəhri kənd inzibati ərazi dairəsi Cəhri qəsəbə inzibati ərazi dairəsi hesab edilsin.
3. Nehrəm kənd inzibati ərazi dairəsi tərkibindəki Nehrəm kəndinə qəsəbə statusu verilsin, Nehrəm kənd inzibati ərazi dairəsi Nehrəm qəsəbə inzibati ərazi dairəsi hesab edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyun 2020-ci il*

# "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 12 iyun tarixli 128-VIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 12 iyun tarixli 128-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyun 2020-ci il*

# İLHAM ƏLİYEV Paşinyanı yenə rəzil etdi

## Azərbaycanın hücum diplomatiyası Ermənistanı dalana dirəyib

*Əvvəli 1-ci səh.*

Sonra isə o, Ramil Səfərovun Azərbaycana ekstradisiyası və onun burada əfv edilməsindən narazılıq edib. Amma cavabı da dərhal elə anında da Prezident İlham Əliyev tərəfindən verilib: "Birincisi, bu, hər kəsə bəlli olan bir faktdır ki, Ermənistan Azərbaycanın ərazisini işğal edib. İkincisi isə, Ermənistanın baş nazirinə irqçilik haqqında danışmağı məsləhət görməzdim, çünki erməni terrorçuları dünyaca məşhurdurlar. Parisin Orli hava limanında terror hadisəsi törədən Karapetyan soyadlı şəxs sonradan Ermənistana ekstradisiya edilib və Ermənistan prezidenti tərəfindən əfv olunub. Məhz buna görə belə məsələlər ətrafında müzakirə gedəndə ona sakit oturmağı tövsiyə edərdim".

Danılmaz həqiqətdir ki, Ramil Səfərovun Azərbaycana ekstradisiyası ilə bağlı erməni tərəfinin hər dəfə qaldırdığı hay-küyün heç bir əsası yoxdur. İlk növbədə ona görə ki, 1983-cü ildə qəbul olunmuş "Məhkumların təhvil verilməsi barədə" Strasburq Konvensiyasına qoşulan ölkələrdən biri məhbusu öz ölkəsində cəza çəkmək üçün digərinə ekstradisiya edə bilər. Məhbusu qəbul edən tərəf cəzanın çəkilməsini təmin edə, yaxud cəzanı həmin ölkənin daxili hüquqi prosedurları çərçivəsində dəyişdirə bilər. Azərbaycan həmin konvensiyanı qəbul etdiyinə görə Macarıstan Ədliyyə Nazirliyi Ramil Səfərovun ekstradisiyasını həyata keçirib. Konvensiyaya görə cəza həmin ölkənin qanunvericiliyinə əsasən tənzimlənə bilər.

### Terror Ermənistanda dövlət səviyyəsində dəstəklənir

Terrora dövlət səviyyəsində dəstək verən Paşinyan yenə də sərsəm ritorikaları və diplomatiya tarixinə ləkə gətirən qeyri-ciddi çıxışı ilə diqqəti cəlb etdi. Ancaq İlham Əliyev digər beynəlxalq toplantılarda olduğu kimi, növbəti dəfə də Paşinyanın yalan üzərində qurulmuş çıxışını dəqiq faktlara və arqumentə əsaslanan məntiqli fikirləri ilə alt-üst etdi. Azərbaycan Prezidenti bir daha işğalçı rejimin rəhbərini rəzil gününə saldı.

Burada bir məqamı qeyd edək ki, Paşinyan Avropa İnsan Hüquqları Məhkəməsinin son qərarını tamamilə saxtalaşdırılmış formada təqdim edərək bu qərarda guya Azərbaycanın öz ərazisində ermənilərə qarşı irqçi siyasət həyata keçirdiyinin əks olunduğunu iddia etdi. Halbuki Avropa İnsan Hüquqları Məhkəməsinin qərarında Paşinyanın iddia etdiyi xüsusda Azərbaycana qarşı hər hansı bir ittiham irəli sürülməyib. Bu məhkəmənin qərarında irqçilik ittihamı əsasında Azərbaycanın hər hansı bir dövlət məsuliyyətinin də olduğu qeyd edilməyib.

Beləliklə, Avropa İnsan Hüquqları Məhkəməsinin qərarı əsasında Azərbaycanı irqçilikdə ittiham edən Paşinyan növbəti dəfə özünü yalanla və saxtakarlıqda ifşa etdi. Digər tərəfdən Paşinyan aldığı cavabla erməni terrorunu bir daha gündəmə gətirdi. Belə ki, qeyd olunduğu kimi, Prezident İlham Əliyev çıxışında erməni terrorçusu Karapetyanla bağlı məsələyə toxundu. Dövlət başçısının haqqında danışdığı hadisə 1983-cü il iyulun 15-də Parisin Orli hava limanında baş verib. ASALA terror təşkilatının üzvü Varujan Karapetyanın başçılığı altında həyata keçirilən, Türk Hava Yollarının kassası qarşısında törədilən qanlı terror aktında həlak olan 8 nəfərdən 2-si Türkiyə, 4-ü Fransa, 1-i ABŞ, 1-i isə İsveç vətəndaşı idi. Terror zamanı 55 nəfər də yaralanmışdı. Karapetyan istintaqa ifadəsində hadisəni törətdiyini boynuna alaraq, əslində, əsas məqsədinin bombanı təyyarənin içində partlatmaq olduğunu etiraf etmişdi. Törətdiyi cinayətə görə Fransa məhkəməsi onu ömürlük həbs etsə də, 2001-ci ildə Karapetyan Ermənistana ekstradisiya olunmuşdu. Burada qəhrəman kimi qarşılanan terrorçu Ermənistanın ovaxtkı baş naziri Andranik Marqaryan tərəfindən qəbul edilmiş, mənzil və işlə təmin olunmuşdur.

Bu, bir daha onu göstərir ki, qanlı terror törədən insanın Ermənistanda qəhrəmanlaşdırılması adi haldır. Bu, Ermənistanda terrorizmin dövlət səviyyəsində dəstəkləndiyini göstərən çoxsaylı faktlardan biridir. Bu məqamın beynəlxalq səviyyəli tədbirdə Azərbaycan Prezidenti tərəfindən yenidən gündəmə gətirilməsi Ermənistanı növbəti dəfə mat vəziyyətinə saldı.

Beləliklə, Paşinyanın videokonfransda həm Azərbaycan Prezidenti, həm də bütün iştirakçılar qarşısında aciz və gülməli duruma düşməsi bir daha onun küçə adamı olaraq qaldığını nümayiş etdirdi. Eyni zamanda yardım dilənən Ermənistanla qlobal səviyyədə humanitar missiya yerinə yetirən Azərbaycanın fərqi aydın göründü.

### Paşinyan hakimiyyətinin faşist mahiyyəti

Digər tərəfdən, Ermənistanda baş verənlər burada terrorçuluq və faşizmin tüğyan etməsinə dair Azərbaycanın dediklərinin real təsdiqidir. Məsələn, bu yaxınlarda Paşinyan müxalif partiyaları virus daşıyıcıları ilə müqayisə etdi. Xatırladaq ki, bir vaxtlar Hitler də rəqiblərini virus daşıyıcıları ilə müqayisə etmişdi. Əvvəlcə yəhudiləri, sonra kommunistləri və sosial-demokratları, həmçinin digər əleyhdarlarını basil adlandırmışdı. Nasist Hitlerin totalitar düşüncəsi özündən başqa heç bir siyasi subyekti tanımayan bugünkü Paşinyanın düşüncəsinə çox bənzəyir. Əleyhdarlarının hər birini Milli Təhlükəsizlik Xidməti və cinayət işlərinin açılması ilə təhdid edir. Bu, göstərir ki, Ermənistanda hakimiyyətin terrorçu və faşist mahiyyəti dəyişməz olaraq qalır.

Digər tərəfdən, faşizmin Ermənistanda yaradıcılarından olan Njde məlum olduğu kimi, erməni xalqının ali irq olması ideyasını irəli sürürdü ki, bu da nasizm ideyaları ilə uzlaşır. Onun 1930-cu ildə hazırladığı "tsexakronizm" konsepsiyası irqçilik nəzəriyyəsindən çıxış edir. Oxşar ideologiya müasir Ermənistanda da kök atıb və bu, ərazi genişləndirmə siyasəti, türklərə, azərbaycanlılara qarşı fobiya, erməni xalqının ali irq olması və 3 dənizin ortasında "Böyük Ermənistan" xülyasının bir hissəsidir. Paşinyan bunlara sadiq qalmaqla Ermənistanda faşizmin təşəkkülünə yeni təkan verir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## Milli Məclisin iclasında

# Azərbaycan Prezidenti ölkəmizin mövqeyini bütün platformalarda ən yüksək səviyyədə və cəsarətlə müdafiə edir

*Əvvəli 1-ci səh.*

Azərbaycan Prezidenti bir daha sübut etdi ki, ölkəmizin maraqlarını, ədalətli mövqeyini bütün platformalarda ən yüksək səviyyədə və cəsarətlə müdafiə edir. Hesab edirəm ki, bu, Milli Məclisin deputatları olaraq hər birimiz üçün bir örnəkdir.

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırdı ki, iclasın gündəliyinə 17 məsələ daxil edilib. Gündəlik təsdiq edildikdən sonra deputatlar cari məsələləri müzakirə etdilər.

Milli Məclis Sədrinin müavini Adil Əliyev, komitə sədrləri Ziyafət Əsgərov, Zahid Oruc, deputatlardan Soltan Məmmədov, Kamran Bayramov, Fazil Mustafa, Əli Məsimli, Nizami Cəfərov, Müşfiq Cəfərov, Fəzail Ağamalı ölkə gündəmində olan vacib məsələlərdən danışdılar, təmsil etdikləri bölgə və rayonlarda seçiciləri narahat edən məsələlərdən söz açdılar. Ölkə Prezidentinin son vaxtlar müxtəlif rayonların su təsərrüfatı sistemlərinin yenilənməsi ilə bağlı vaxtaşırı olaraq verdiyi sərəncamların vətəndaşlarımız tərəfindən minnətdarlıqla qarşılandığını vurğuladılar.




### Ötən ilin dövlət büdcəsinin icrası haqqında qanun layihəsi üçüncü oxunuşda qəbul olundu

Sonra iclasın gündəliyinə daxil edilən məsələlərə baxıldı. "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsini üçüncü oxunuşda təqdim edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirdi ki, layihənin birinci və ikinci oxunuşlarda müzakirəsində ətraflı məlumat verilmişdir. Müzakirələr zamanı 34 deputat çıxış etmiş, qeyd və təkliflərini vermiş, bir sıra məsələlərə maliyyə naziri Samir Şərifov tərəfindən aydınlıq gətirilmişdir.

Komitə sədri bildirdi ki, 2019-cu il Azərbaycanda ən sürətli, əhatəli islahatlar ili kimi yadda qalmışdır. Aparılan iqtisadi islahatlar inklüziv iqtisadi inkişafla nəticələnmişdir. 2019-cu ilin dövlət büdcəsi Azərbaycan Prezidenti İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf prioritetləri və sosial-iqtisadi siyasət istiqamətləri ilə uzlaşdırılaraq qlobal iqtisadiyyatda gedən proseslərin icmal və dövlət büdcələrinin əsas parametrlərinə ehtimal olunan təsirləri nəzərə alınmaqla icra olunmuşdur. Bütün sosial proqramlar və xüsusilə də iki böyük sosial paket icra olunmuş, nəzərdə tutulan hədəflərə nail olunmuşdur.

Müzakirələr zamanı çıxış edən komitə sədrləri Musa Quliyev, Qənirə Paşayeva, deputatlardan Qüdrət Həsənquliyev, Aydın Hüseynov, İqbal Məmmədov, Erkin Qədirli sənədlə bağlı fikirlərini açıqladılar.

İclasda iştirak edən maliyyə naziri Samir Şərifov deputatları maraqlandıran məqamlara aydınlıq gətirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda səsə qoyularaq qəbul edildi.

### Qanunlara dəyişikliklər təsdiq olundu

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (üçüncü oxunuş) məlumat verdi. Bildirildi ki, bu dəyişiklik ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması sahəsində görülən tədbirlər çərçivəsində məhkəmələrin fəaliyyətinin monitorinq sisteminin təkmilləşdirilməsi məqsədini daşıyır. Layihə üçüncü oxunuşda qəbul edildi.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini müzakirəyə təqdim etdi. Qeyd edildi ki, qanunun bir necə maddəsinə əsasən, sənədin qüvvəyə minmə tarixi dəyişdirilir. 1 iyul 2020-ci il tarixindən etibarən iqtisadi, ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməzdən öncə ilkin mediasiya sessiyasında iştirak etmək nəzərdə tutulmuşdur. Vurğulandı ki, ölkədə COVID-19 koronavirus pandemiyası ilə bağlı xüsusi karantin rejimi tətbiq edildiyindən "Mediasiya haqqında" qanunun ilkin mediasiya sessiyalarında məcburi iştirakı nəzərdə tutulan müddəalarının qüvvəyə minmə tarixinin 1 yanvar 2021-ci il tarixinədək təxirə salınması məqsədəmüvafiq hesab edilir. Sənəd təsdiq olundu.

Gündəlikdəki növbəti iki məsələ - İnzibati Xətalar Məcəlləsinə və "Yol hərəkəti haqqında" qanuna təklif edilən dəyişikliklərlə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov məlumat verdi. Bildirildi ki, layihələrdə "dərman qutuları" sözlərinin "ilk tibbi yardım qutusu" sözləri ilə əvəz edilməsi təklif edilir. Hər iki layihə qəbul edildi.

Sonra Regional məsələlər komitəsinin üzvü Kamran Bayramov "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanunun layihəsi haqqında (birinci oxunuş) məlumat verərək bildirdi ki, təklif olunan dəyişikliklər bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan tərəfindən bələdiyyələrin yol verdiyi pozuntularla yanaşı, onları yaradan səbəb və şəraitin aradan qaldırılmasını, bələdiyyə aktlarına 15 iş günü müddətində baxılmasını, inzibati nəzarət icraatı zamanı dövlət orqanları və qurumlarına sorğuların göndərilməsini və məlumatların alınmasını, habelə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın apardığı araşdırma zamanı bələdiyyələrin vəzifəli şəxslərindən, bələdiyyə qulluqçularından yazılı məlumatlar və arayışlar almaq hüququnun verilməsini nəzərdə tutur. Bu dəyişikliklər orqanın fəaliyyətinin təkmilləşdirilməsi, inzibati nəzarət icraatının daha səmərəli, dolğun və hərtərəfli şəkildə həyata keçirilməsi üçün şərait yaradacaqdır.

Deputatlardan Jalə Əliyeva, Aqiyə Naxçıvanlı, Rauf Əliyev, Vüqar Bayramov sənədlə bağlı fikirlərini açıqladılar. Qanun layihəsi səsə qoyularaq qəbul edildi.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında məlumat verərək bildirdi ki, dəyişiklik qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə aparılıb. Bələdiyyələrin fəaliyyətinə nəzarəti həyata keçirən qurum ilin yekunu üzrə öz fəaliyyəti barədə hesabatı Milli Məclisə təqdim edəcək. Sənəd səsvermə yolu ilə təsdiqləndi.

Regional məsələlər komitəsinin üzvü Kamran Bayramov bildirdi ki, növbəti iki məsələ - "Bələdiyyələrin statusu haqqında" və "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanunlara təklif olunan dəyişikliklər bələdiyyələr tərəfindən qəbul edilən qərarların surətlərinin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqana göndərilməsi müddətinin 15 gün müddətindən 5 iş günü müddətinə qədər azaldılmasını nəzərdə tutur. Bu dəyişikliklərə əsasən, bələdiyyə qərarlarına bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqan tərəfindən baxılması prosesinin operativliyi və səmərəsi artacaqdır. Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyevin və deputat Cavanşir Paşazadənin sənədlərlə bağlı münasibəti dinlənildikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq təsdiq edildi.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov "Dövlət rüsumu haqqında", "Dövlət qulluğu haqqında", "Peşə təhsili haqqında", "Ümumi təhsil haqqında", "Məktəbəqədər təhsil haqqında" qanunlarda dəyişikliklər edilməsi barədə qanun layihəsinin təqdimatında bildirdi ki, layihə "Təhsil haqqında", "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi haqqında 2020-ci il 24 aprel tarixli 58-VIQD nömrəli qanunun icrası ilə əlaqədar hazırlanıb. Parlamentin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, deputatlardan Ceyhun Məmmədov və Razi Nurullayev sənədlə əlaqədar fikirlərini açıqladılar. Qanun layihəsi təsdiq olundu.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "İcra məmurları haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsini təqdim etdi. Bildirildi ki, 2017-ci il 10 fevral tarixində Ədliyyə Nazirliyinin tərkibində Probasiya Xidməti yaradılmışdır və bu xidmətin vəzifəsi cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına nəzarəti təşkil etməkdən ibarətdir. Bu məqsədlə cərimə və islah işləri növlərində cəzaların, habelə hüquqi şəxslərə tətbiq edilən cərimə növündə cinayət-hüquqi tədbirlərin icrası ilə əlaqədar daxil olan vəsaitin 43 faizinin Ədliyyə Nazirliyinin hesabına köçürülməsi təklif olunur. Qeyd edildi ki, müvafiq dəyişiklik xidmət əməkdaşlarının maddi və sosial müdafiəsinin gücləndirilməsi, habelə xidmətin maddi-texniki təminatının yaxşılaşdırılması üçün nəzərdə tutulub.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova və deputat Erkin Qədirli sənədlə bağlı fikirlərini bildirdikdən sonra qanun layihəsi qəbul edildi.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə (birinci oxunuş) məlumat verdi. Qeyd etdi ki, təklif olunan dəyişikliklər "Telekommunikasiya haqqında" qanuna əsasən telekommunikasiya operatorları və provayderlər tərəfindən hüquq mühafizə orqanlarının sorğularına cavabların gecikdirilməsinə və tələb olunan məlumatların təqdim edilməməsinə görə tətbiq ediləcək cərimələr məbləğini və inzibati məsuliyyət növlərini özündə ehtiva edir. Belə ki, müvafiq icra hakimiyyəti orqanının, habelə məhkəmələrin, hüquq mühafizə orqanlarının sorğularına 3 iş günü ərzində cavab vermədikdə, tələb olunan məlumatları təqdim etmədikdə vəzifəli şəxslər 300 manatdan 500 manatadək cərimə edilir, hüquqi şəxslər 1000 manatdan 1500 manatadək, bu hal qüvvəyə mindiyi gündən keçən bir il ərzində təkrar törədildikdə isə vəzifəli şəxslər 500 manatdan 700 manatadək, vəzifəli şəxsləri isə 1000 manatdan 2500 manatadək məbləğdə cərimə olunacaqlar. Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Kamal Cəfərov daha sonra birinci oxunuşda müzakirəyə çıxarılan Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında, Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrini şərh etdi. Deputat bildirdi ki, dəyişikliklər Prezident İlham Əliyevin penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi, cəmiyyətdən təcrid etmədən alternativ cəzaların tətbiqinin genişləndirilməsi ilə bağlı 2017-ci il 10 fevral tarixli sərəncamının icrası və Ədliyyə Nazirliyinin Probasiya xidmətinin daha geniş tətbiqi məqsədilə aparılıb. Belə ki, barəsində ictimai cəza və inzibati tənbeh qərarı çıxarılmış şəxslər də elektron nəzarət vasitəsi gəzdirəcək. Məhkəmə tərəfindən ictimai işlərə məhkum edilmiş şəxslərin üzərinə ictimai işlərin yerinə yetirildiyi yerlərdə elektron nəzarət vasitəsini gəzdirmək və həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmək vəzifəsi qoyulur.

Deputatlar Erkin Qədirli, Aydın Hüseynov, Qüdrət Həsənquliyev, Arzu Nağıyev qanun layihələri ilə bağlı fikirlərini açıqladıqdan sonra layihələr birinci oxunuşda qəbul edildi.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Telekommunikasiya haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini müzakirəyə (birinci oxunuş) təqdim etdi. Bildirildi ki, qanunda "az" ölkə kodlu, yüksək səviyyəli domen adlarının tənzimlənməsinə dair müddəalar nəzərdə tutulmuşdur. Sənədə "az" ölkə kodlu yüksək səviyyəli domen zonasında onların qeydiyyatı və texniki xidmət üzrə ödənişin hüquqi əsasının yaradılması, həmin ödənişin məbləğinin razılaşdırılacağı qurumun müəyyənləşdirilməsi ilə bağlı maddə əlavə edilib. Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova sənədlə əlaqədar fikirlərini bildirdikdən sonra qanun layihəsi birinci oxunuşda təsdiq edildi.

İclasda son olaraq "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarıldı. Bildirildi ki, sənədə təklif olunan dəyişikliklər "Əhalinin sağlamlığının qorunması haqqında" qanunda dəyişiklik edilməsi barədə" 27 iyun 2019-cu il tarixli qanuna uyğunlaşdırma məqsədi daşıyır. Dəyişikliklər tibb müəssisələrinin akkreditasiyasının keçirilməsi qaydalarını və buna görə tutulan dövlət rüsumunun dərəcələrini müəyyən edəcək. Məsələ barədə Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, deputat Nigar Arpadarai fikirlərini bildirdilər. Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# *Surinamın Xarici İşlər naziri:* "Azərbaycan ilə təhsil sahəsində əməkdaşlıq üçün böyük potensial mövcuddur"

**İyunun 19-da qarşı tərəfin təşəbbüsü ilə nazir Elmar Məmmədyarovun Surinam Respublikasının Xarici İşlər naziri Yldiz Pollak Beigle ilə telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazirlər mövcud qlobal vəziyyətə toxunaraq ümumdünya sağlamlıq böhranı ilə mübarizə çərçivəsində iki ölkə tərəfindən görülən tədbirlərə dair məlumat mübadiləsi aparıblar və bu xüsusda, qarşılıqlı dəstək və həmrəyliyin gücləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Surinam Respublikasının Xarici İşlər naziri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə COVID-19 virusuna qarşı mübarizəyə həsr edilmiş BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə bağlı təşəbbüsünü dəstəklədiyini bildirib.

Tərəflər ikitərəfli münasibətlərin daha da inkişafı perspektivləri, beynəlxalq təşkilatlar, o cümlədən BMT, İKT çərçivəsində mövcud olan əməkdaşlıq münasibətlərindən bəhs ediblər və bu istiqamətdə birgə səylərin artırılmasına dair razılıq ifadə olunub.

Nazirlər iki ölkə arasında enerji sahəsində əməkdaşlıq imkanları, həmçinin bu sahədə mütəxəssislərin hazırlanmasının xüsusi əhəmiyyət kəsb etdiyini qeyd ediblər.

Nazir Yldiz Pollak Beigle Azərbaycan ilə Surinam arasında təhsil sahəsində əməkdaşlıq üçün böyük potensialın mövcudluğunu diqqətə çatdırıb və Bakıya səfəri zamanı ADA Universitetində tanışlığını məmnunluqla xatırladıb.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 21-ci və 23-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797; 2014, № 11, maddələr 1351, 1357, № 12, maddə 1539; 2015, № 3, maddə 259, № 6, maddə 689, № 12, maddə 1436; 2016, № 2 (II kitab), maddə 214, № 6, maddələr 970, 988, 1008, № 7, maddə 1246, № 11, maddə 1794; 2017, № 7, maddə 1312, № 11, maddə 1963, № 12 (I kitab), maddələr 2218, 2257; 2018, № 1, maddə 32, № 3, maddə 386, № 6, maddə 1156, № 7 (I kitab), maddə 1434; 2019, № 1, maddə 23, № 7, maddə 1191, № 8, maddə 1380, № 11, maddə 1686) 38.6-cı maddəsinin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Birdəfəlik və ya çoxdəfəlik elektron vizanın verilməsi ilə bağlı müraciət qəbul edildikdən sonra ən geci 3 iş günü müddətində, birdəfəlik elektron vizanın sürətləndirilmiş qaydada alınması üçün müraciət edildikdə ən geci 3 saat ərzində, birdəfəlik elektron vizanın Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında alınması üçün müraciət edildikdə isə real vaxt rejimində "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin məhdudiyyət siyahıları üzrə yoxlama aparılır, imtina üçün əsas olmadıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada viza verilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2020-ci il*

---

## "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 100-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 100-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 803; 2014, № 9, maddə 1050, № 11, maddələr 1382, 1413, № 12, maddə 1588; 2015, № 10, maddə 1121; 2016, № 6, maddələr 1020, 1044, № 11, maddə 1827; 2018, № 7 (I kitab), maddə 1476; 2019, № 7, maddə 1240) 5.1-ci bəndinə "38.2-ci" sözlərindən sonra "maddələrində, 38.6-cı maddəsinin birinci cümləsində" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 100-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyun 2020-ci il*

---

## "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 21-ci və 23-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 394; 2004, № 4, maddə 203, № 6, maddə 396; 2007, № 8, maddə 751; 2014, № 11, maddə 1341; 2016, № 12, maddə 2035; 2017, № 6, maddə 1030, № 7, maddə 1276; 2018, № 1, maddə 31; 2019, № 6, maddə 991) aşağıdakı dəyişikliklər edilsin:

1. 7-1-ci maddənin adına "Turizm vizası" sözlərindən sonra "və turistlərə verilən elektron vizalar" sözləri əlavə edilsin.

2. 7-1.6-cı maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Birdəfəlik və ya çoxdəfəlik elektron vizanın verilməsi ilə bağlı müraciətə ən geci 3 iş günü müddətində, birdəfəlik elektron vizanın sürətləndirilmiş qaydada alınması üçün müraciət edildikdə ən geci 3 saat ərzində, birdəfəlik elektron vizanın Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında alınması üçün müraciət edildikdə isə real vaxt rejimində baxılır, imtina üçün əsas olmadıqda müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada viza verilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2020-ci il*

---

## "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 101-VIQD nömrəli Qanununun tətbiqi və "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 164 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 101-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 164 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 426; 2003, № 10, maddə 571; 2009, № 4, maddə 226; 2014, № 11, maddə 1410; 2016, № 12, maddə 2074; 2020, № 1, maddə 14) 2-ci hissəsinin ikinci abzasında "maddəsində" sözü "və 7-1.6-cı maddələrində" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 101-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyun 2020-ci il*

---

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Qiymətləndirmə fəaliyyəti haqqında" və "İcra məmurları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı, 10-cu və 15-ci bəndlərini rəhbər tutaraq, "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1440-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894) 90.3-cü maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. Dördüncü abzas aşağıdakı redaksiyada verilsin:

"Vergi ödəyicisinin siyahıya alınmış əmlakının məhkəmənin qərarı ilə qiymətləndirildiyi, habelə tənzimlənən qiymətlərin tətbiq olunduğu hallar istisna olmaqla, vergi ödəyicisinin siyahıya alınmış əmlakının qiymətləndirilməsi "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qiymətləndirici tərəfindən həyata keçirilir.";

1.2. beşinci abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İcra məmuru qiymətləndirmə sahəsində ixtisaslaşmış və 5 ildən az olmayaraq fəaliyyət göstərən, ağır və ya xüsusilə ağır cinayətlərə, habelə korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan cinayətlərə və ya iqtisadi sahədə olan cinayətlərə görə məhkum edilməyən qiymətləndiricini dəvət etməlidir.".

**Maddə 2.** "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 562; 2002, № 5, maddə 241; 2007, № 5, maddə 436, № 8, maddə 745, № 10, maddə 938; 2012, № 6, maddə 502) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5-ci maddə üzrə:

2.1.1. üçüncü abzasa "girov" sözündən sonra "(ipoteka)" sözü əlavə edilsin;

2.1.2. səkkizinci abzasdan "(bu halda qiymətləndirmə əmlakın mülkiyyətçisi olan şəxslərin sifarişi ilə qiymətləndirici tərəfindən və ya qanunvericiliyə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır)" sözləri çıxarılsın;

2.2. 12-ci maddəyə aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Bu Qanunun 5-ci maddəsinin səkkizinci abzasında nəzərdə tutulan məcburi qiymətləndirmə icra məmurunun sifarişi ilə həyata keçirildiyi halda, icra məmuru qiymətləndirmə sahəsində ixtisaslaşmış və 5 ildən az olmayaraq fəaliyyət göstərən, ağır və ya xüsusilə ağır cinayətlərə, habelə korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan cinayətlərə və ya iqtisadi sahədə olan cinayətlərə görə məhkum edilməyən qiymətləndiricini dəvət etməlidir.";

2.3. 13-cü maddənin ikinci hissəsində "Qiymətləndirmə" sözü "Azərbaycan Respublikasının qanunlarında başqa hal nəzərdə tutulmamışdırsa, qiymətləndirmə" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "İcra məmurları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 18; 2001, № 11, maddə 687, № 12, maddə 731; 2003, № 1, maddə 23; 2004, № 2, maddə 57, № 3, maddə 133; 2006, № 11, maddə 928; 2007, № 1, maddə 4, № 7, maddə 712; 2010, № 7, maddə 591; 2011, № 6, maddə 477, № 7, maddə 584, № 12, maddə 1092; 2013, № 7, maddə 788; 2015, № 3, maddə 252; 2016, № 6, maddə 991; 2018, № 7 (I kitab), maddə 1423) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 7-ci maddənin birinci hissəsinin altıncı abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda yeddinci-onuncu abzaslar əlavə edilsin:

"tələbin borclunun əmlakına, o cümlədən nağd, yaxud banklarda və ya digər kredit təşkilatlarındakı hesablarda və əmanətlərdə, habelə saxlancda olan pul vəsaitlərinə və başqa sərvətlərinə yönəldilməsi zamanı qəbul olunmuş qərar (əmlakın üzərinə həbs qoyulması və s.) barədə 1 iş günündən gec olmayaraq qarşılıqlı inteqrasiya olunmuş elektron sistem vasitəsilə "Elektron hökumət" portalında müvafiq qeydlər aparır;

icra sənədində göstərilmiş tələblər aydın olmadıqda, həmin icra sənədinin verilməsi üçün əsas olmuş qərarın, habelə qanuna əsasən icra sənədi sayılan sənədin izah olunması barədə müvafiq məhkəməyə və ya digər orqana ərizə ilə müraciət edir;

icra sənədlərinin aidiyyəti üzrə göndərilməsi barədə tələbkara məlumat verir;

qanunla müəyyən edilmiş hallarda və müddətlərdə borclunun əmlakının mühafizəsini təmin edir.";

3.2. 8-ci maddənin birinci hissəsi üzrə:

3.2.1. on birinci abzas ləğv edilsin;

3.2.2. on beşinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on altıncı-on səkkizinci abzaslar əlavə edilsin:

"müvafiq icra hakimiyyəti orqanı və digər dövlət orqanlarından (qurumlarından) icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı onların səlahiyyətlərinə uyğun olaraq yardım almaq;

icra hərəkətlərinin həyata keçirilməsi ilə əlaqədar məlumatları müvafiq icra hakimiyyəti orqanının "Elektron icra" informasiya sistemi vasitəsilə əldə etmək;

qanunda nəzərdə tutulmuş qaydada eyni vaxtda birdən çox məcburi icra tədbiri görmək.";

3.3. 12-ci maddənin üçüncü hissəsində "notariat orqanlarının" sözləri "notariusların" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 may 2020-ci il*

---

## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Qiymətləndirmə fəaliyyəti haqqında" və "İcra məmurları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 103-VIQD nömrəli Qanununun tətbiqi və "İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Qiymətləndirmə fəaliyyəti haqqında" və "İcra məmurları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 103-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

"İcra məmurları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 5 yanvar tarixli 246 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 25; 2002, № 5, maddə 262, № 8, maddə 478; 2011, № 4, maddə 278; 2018, № 7 (I kitab), maddə 1469) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1. üçüncü abzasa "maddəsində" sözündən sonra ", 8-ci maddəsinin birinci hissəsinin on altıncı abzasında" sözləri əlavə edilsin;

2. beşinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"həmin Qanunun 8-ci maddəsinin birinci hissəsinin on beşinci abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirir.";

3. ikinci-altıncı abzaslar müvafiq olaraq 2.1-2.5-ci bəndlər hesab edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2020-ci il*

---

## "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 17 mart tarixli 962 nömrəli, 19 mart tarixli 964, 965 nömrəli və 7 may tarixli 1015 nömrəli fərmanları) 4.29-1-ci bəndindən "isə" sözü çıxarılsın, həmin bəndə "Bakı Nəqliyyat Agentliyi" sözlərindən sonra ", Sumqayıt şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya və taksi minik avtomobilləri ilə sərnişindaşımaya münasibətdə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi, Gəncə şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı ilə müntəzəm şəhərdaxili sərnişindaşımaya və taksi minik avtomobilləri ilə sərnişindaşımaya münasibətdə isə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2020-ci il*

---

## Azərbaycan Respublikası Prezidentinin "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusunun təsdiq edilməsi haqqında" 2003-cü il 4 avqust tarixli 911 nömrəli və "Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında" 2019-cu il 11 aprel tarixli 622 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1632-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440; 2006, № 3, maddə 229, № 6, maddə 498; 2007, № 2, maddələr 86, 101, № 3, maddələr 217, 227, № 7, maddə 714, № 9, maddə 867, № 10, maddə 948, № 12, maddə 1242; 2008, № 1, maddə 9, № 3, maddələr 173, 179, № 6, maddə 499, № 8, maddələr 717, 723; 2009, № 2, maddə 66, № 6, maddələr 419, 421, 422; 2010, № 2, maddə 80, № 3, maddə 183, № 10, maddə 850; 2011, № 2, maddə 85; 2012, № 11, maddə 1078; 2013, № 3, maddə 236, № 8, maddə 901; 2014, № 9, maddə 1027; 2016, № 5, maddə 854, № 6, maddələr 1029, 1073; 2017, № 5, maddə 840, № 8, maddələr 1519, 1521; 2018, № 7 (I kitab), maddələr 1445, 1486, № 11, maddə 2287; 2019, № 1, maddə 76, № 4, maddə 655, № 6, maddə 1027, № 7, maddə 1211, № 8, maddə 1405) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nun 2.1.6-cı yarımbəndinin 8-ci abzasında, 2.1.7-ci yarımbəndinin 2-ci abzasında və 2.3.3-cü yarımbəndinin 1-ci abzasında "inzibati-iqtisadi məhkəmələrin" sözləri "inzibati məhkəmələrin, kommersiya məhkəmələrinin" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622; 2020, № 1, maddə 12) ilə təsdiq edilmiş Əlavə 2 - "Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 37.2-ci bəndində "inzibati-iqtisadi" sözləri "inzibati məhkəmələrinin, kommersiya" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2020-ci il*

# Bir sıra şəhər və rayonlarda xüsusi karantin rejimi iki həftə müddətinə sərtləşdirilir - Qərar

**Baş Nazir Əli Əsədov Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Yevlax, Masallı, Cəlilabad şəhərlərinin və Abşeron rayonunun ərazisində xüsusi karantin rejiminin sərtləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə Qərar imzalayıb. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.**

Qərarda deyilir: “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları”na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Yeni növ koronavirus (COVID-19) infeksiyasının yayılma sürətinin azaldılması, habelə onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə xüsusi karantin rejiminin sərtləşdirilməsini təmin etmək üçün Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Yevlax, Masallı, Cəlilabad şəhərlərinin və Abşeron rayonunun ərazisində 2020-ci il 21 iyun saat 00:00-dan 5 iyul saat 06:00-dək aşağıdakı məhdudiyyətlər tətbiq edilsin:

1.1. Aşağıda qeyd edilən iş və xidmət sahələri üzrə fəaliyyət dayandırılsın:

1.1.1. nəzdindəki ərzaq mağazaları və apteklər istisna olmaqla, iri ticarət mərkəzlərinin fəaliyyəti;

1.1.2. ictimai iaşə obyektlərində müştərilərə yerində xidmətlər;

1.1.3. muzey və sərgi zallarının fəaliyyəti;

1.1.4. bərbərxanaların, gözəllik salonlarının fəaliyyəti və kosmetik xidmətlər (o cümlədən bu sahələrdə müştərinin evində və ya digər məkanda xidmət);

1.1.5. təhsil müəssisələrinin fəaliyyəti (onlayn imtahan, müsabiqə və müsahibələr istisna olmaqla);

1.1.6. açıq havada idman yarışlarının və oyunlarının keçirilməsi.

1.2. Aşağıdakı şəxslərin xidməti vəsiqələri əsasında hərəkət etmələrinə yol verilir:

1.2.1. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin, Azərbaycan Respublikası Tibb Xidmətinin, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər İdarəsinin əməkdaşları;

1.2.2. Azərbaycan Respublikası Milli Məclisinin deputatları və Aparatının əməkdaşları;

1.2.3. mərkəzi və yerli icra hakimiyyəti orqanlarının rəhbərləri və onların müavinləri;

1.2.4. dövlətə məxsus olan hüquqi şəxslərin, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslərin rəhbərləri və onların müavinləri;

1.2.5. hüquq mühafizə, məhkəmə və hərbi xidmət nəzərdə tutulmuş orqanların əməkdaşları, vəkillər;

1.2.6. Azərbaycan Respublikasında akkreditasiya olunmuş diplomatik nümayəndəliklərin və beynəlxalq təşkilatların əməkdaşları və onların yerli heyəti (Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən verilmiş akkreditasiya kartları əsasında).

1.3. Bu Qərarın 1.2-ci bəndində qeyd olunanlar istisna olmaqla, digər dövlət orqanlarının (qurumlarının) əməkdaşlarının, “ASAN Könüllüləri” İctimai Birliyinin, “Aqrar İnkişaf Könüllüləri” Hərəkatının, “Regional İnkişaf” İctimai Birliyinin, “Bir” tələbə könüllülərinin, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin könüllülərinin, həmçinin bu Qərarın əlavəsində nəzərdə tutulan sahələrdə fəaliyyət göstərən özəl hüquqi şəxslərin əməkdaşlarının və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin və onların işçilərinin, fəaliyyətinin davam etdirilməsinə icazə verilməmiş özəl hüquqi şəxslərin mühafizəsi və texniki təhlükəsizliyinin təmin edilməsi üçün tələb olunan əməkdaşların hərəkətinə onlar barəsində məlumatlar işəgötürən tərəfindən gücləndirilmiş elektron imzadan istifadə edilməklə “icaze.e-gov.az” portalına daxil edildikdən sonra yol verilir.

1.4. Kənd təsərrüfatı məhsullarının toplanması, habelə növbəli suvarma, təxirəsalınmaz baytarlıq və bitki mühafizə xidməti sahələrində fəaliyyət göstərən hüquqi şəxslərin əməkdaşları barədə məlumatlar işəgötürən tərəfindən, həmin sahələrdə fəaliyyət göstərən fiziki şəxslərin hərəkətinə isə onlar barəsində məlumatlar Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və ya olduğu yer üzrə yerli icra hakimiyyəti orqanlarının ərazi nümayəndəlikləri tərəfindən gücləndirilmiş elektron imzadan istifadə edilməklə “icaze.e-gov.az” portalına daxil edildikdən sonra yol verilir.

1.5. Bu Qərarın 1.2-ci, 1.3-cü və 1.4-cü bəndlərində göstərilən şəxslər istisna olmaqla, digər şəxslərin yaşayış yerini və olduğu yeri tərk etmələrinə aşağıdakı hallarda yol verilir:

1.5.1. təxirəsalınmaz tibbi zərurətlə və hər hansı bir qrafik üzrə müalicə almaqla əlaqədar;

1.5.2. ərzaq və digər gündəlik tələbat mallarının, habelə dərman vasitələrinin alınması, dövlət xidmətlərindən, bank, poçt və fəaliyyətinin davam etdirilməsinə icazə verilən iş və xidmət sahələrində göstərilən digər xidmətlərdən istifadə edilməsi zərurəti ilə, həmçinin açıq havada vaxtın keçirilməsi ilə əlaqədar;

1.5.3. yaxın qohumunun dəfnində iştirakla əlaqədar.

1.6. Bu Qərarın 1.5.1-ci və 1.5.2-ci yarımbəndlərində göstərilən şəxslər yaşayış yerini və olduğu yeri tərk etmək üçün icazə almaq məqsədilə 8103 nömrəsinə SMS - məlumat göndərməlidirlər (SMS -məlumatlar ödənişsizdir). SMS məlumatın mətnində aşağıdakı iki indeksdən biri və şəxsiyyəti təsdiq edən məlumat qeyd edilməlidir:

1.6.1. 1 rəqəmi - təxirəsalınmaz tibbi zərurətlə və ya qrafik üzrə müalicə almaqla əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək üçün (icazə rayon və şəhər daxilində 2 (iki) saat müddətinə verilir, rayonlar və şəhərlərarası hərəkət zərurəti yarandıqda olduğu ünvanla getməli olduğu ünvan arasında məsafə və müalicə prosedurunun müddəti nəzərə alınır, geri qayıtma müddəti həkim tərəfindən verilən arayışla müəyyən edilir və zərurət olduqda polis əməkdaşlarına təqdim edilir);

1.6.2. 2 rəqəmi - ərzaq və digər gündəlik tələbat mallarının, dərman vasitələrinin alınması, dövlət xidmətlərinin, bank, poçt və fəaliyyətinin davam etdirilməsinə icazə verilən iş və xidmət sahələrində göstərilən digər xidmətlərdən istifadə edilməsi zərurəti, həmçinin açıq havada vaxtın keçirilməsi ilə əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək üçün (icazə 2 (iki) saat müddətinə gündə 1 dəfə verilir, dövlət xidmətlərindən istifadə edilməsi zərurəti ilə əlaqədar yaşayış yerini və olduğu yeri tərk edən şəxslər üçün geri qayıtma müddəti müvafiq dövlət qurumu tərəfindən verilən arayışla müəyyən edilir).

1.7. Şəxsiyyəti təsdiq edən məlumatlar aşağıdakılardır:

1.7.1. Azərbaycan Respublikasının vətəndaşları üçün - şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi (məsələn, AZE 11111111);

1.7.2. Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər üçün - Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsinin seriyası və nömrəsi (MYİ (DYİ) 1111111);

1.7.3. Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma müddəti uzadılmış əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər üçün - müvəqqəti olma müddətinin uzadılması barədə qərarın seriyası və nömrəsi (MOM 1111111);

nümunə: ərzaq və digər gündəlik tələbat mallarının, habelə dərman vasitələrinin alınması, bank və poçt xidmətlərindən istifadə edilməsi zərurəti ilə əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək üçün 2 AZE 1111111 məzmunlu SMS - məlumatı göndərilməlidir.

1.8. Elektron Hökumət informasiya sistemindən gələn cavab SMS - məlumatda icazənin qüvvədə olduğu müddət göstərilir. Şəxs yaşayış yerini və olduğu yeri yalnız müsbət cavab aldıqdan sonra tərk edə bilər.

1.9. Həyat və sağlamlığa bilavasitə təhlükəli vəziyyət yarandıqda yaşayış yerini və olduğu yeri tərk etmək üçün SMS - məlumatın göndərilməsi tələb olunmur. Həmçinin şəxslər məhkəməyə və ya hüquq mühafizə orqanlarına çağırıldıqda SMS - məlumat göndərilmədən yaşayış yerini və olduğu yeri tərk edirlər. Bu halda onlar məhkəməyə və ya hüquq mühafizə orqanına çağırılmalarına dair sənədi polis əməkdaşlarının tələbi ilə onlara təqdim etməlidirlər.

1.10. SMS - icazə sistemindən istifadə qaydaları və SMS göndərilməsi ilə bağlı yaranan çətinliklərlə əlaqədar Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN Xidmətin) 9108 Çağrı Mərkəzinə müraciət edilə bilər.

1.11. Bu Qərarın 1.5.3-cü yarımbəndində göstərilən əsasla yaşayış yerini və olduğu yeri tərk etmək üçün hər bir şəxs Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsilə icazə almalıdır.

1.12. Bu Qərarda nəzərdə tutulmuş qaydada şəxslərin hərəkəti zamanı onların üzərlərində şəxsiyyəti təsdiq edən sənədlərin olması məcburidir.

2. Bu Qərarla müəyyən edilmiş hərəkət məhdudiyyətlərinin tətbiqi qaydalarının pozulmasına görə fiziki, hüquqi və vəzifəli şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

3. Bu Qərarla müəyyən edilmiş hərəkət məhdudiyyətlərinin tətbiqi qaydalarına riayət olunmasına nəzarət Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən həyata keçirilir.

4. Bu Qərara uyğun olaraq fəaliyyətinə icazə verilmiş sahələrdə fəaliyyət göstərən özəl hüquqi şəxslərin əməkdaşları və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və onların işçilərinin barəsində məlumatların işəgötürən tərəfindən gücləndirilmiş elektron imzadan istifadə edilməklə “icaze.e-gov.az” portalına daxil edilməsinə nəzarət Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən həyata keçirilir və “icaze.e-gov.az” portalı vasitəsilə icazənin alınması üçün yanlış məlumatın daxil edilməsi, habelə yaşayış yerini və olduğu yeri tərk etmək üçün SMS sistemi vasitəsilə icazə alınması prosedurundan sui-istifadə edilməsi halları aşkar edildikdə, bu barədə məlumatlar məsuliyyət tədbirlərinin görülməsi üçün aidiyyəti üzrə təqdim edilir.

5. Beynəlxalq və ölkədaxili uçuşlara müvafiq reys üçün bileti olan şəxslərin yaşadıqları və ya olduqları yerdən hərəkətinə onların biletləri əsasında, dövlət sərhədindən müvafiq qaydada ölkəyə daxil olan şəxslərin yaşadıqları və ya olduqları yerə gəlməsinə isə onların pasportuna vurulmuş ştamp əsasında yol verilir.

6. Müəyyən edilsin ki, “Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 may tarixli 178 nömrəli Qərarında nəzərdə tutulan məhdudiyyətlər bu Qərara zidd olmayan hissədə öz qüvvəsini saxlayır”.

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 19 iyun tarixli 208 nömrəli Qərarına **əlavə***

## Fəaliyyətinə icazə verilən sahələr

**1. Səhiyyə və sosial sahə üzrə:**

1.1. elmi tədqiqat və laborator xidmətləri;

1.2. xəstəxanalar, poliklinikalar və digər tibb müəssisələri üzrə xidmətlər;

1.3. baytarlıq xidmətləri;

1.4. tibbi avadanlıqların, dərmanların və tibbi vasitələrin istehsalı;

1.5. sosial xidmətlər;

1.6. sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntusu olan, habelə xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün baxıcılıq xidməti.

**2. İnfrastruktur sahəsi üzrə:**

2.1. kommunal xidmətlər (kanalizasiya və su təchizatı, qaz təchizatı, istilik təchizatı, enerji paylanması);

2.2. elektrik enerjisinin istehsalı və təchizatı;

2.3. su təsərrüfatı və meliorasiya;

2.4. telekommunikasiya və rabitə xidmətləri.

**3. Nəqliyyat və logistika sahəsi üzrə:**

3.1. hava, dəniz, dəmir yolu və avtomobil nəqliyyatı ilə yük daşımaları;

3.2. dəmir yolu, dəniz gəmiçiliyi, liman və avtomobil yolları xidmətləri;

3.3. logistika xidmətləri;

3.4. ictimai nəqliyyat və taksi xidmətləri.

**4. Əsas istehsalat növləri:**

4.1. müdafiə sənayesi məhsullarının istehsalı;

4.2. neft avadanlıqları və qurğularının istehsalı;

4.3. qida məhsullarının və onlar üçün xammal istehsalı, qida məhsullarının tədarükü, təchizatı, saxlanması və topdan satışı;

4.4. gündəlik baxım və gigiyena vasitələrinin istehsalı;

4.5. kimyəvi məhsulların istehsalı;

4.6. kənd təsərrüfatı məhsullarının toplanması, istehsalı və emalı, o cümlədən fermer təsərrüfatlarının fəaliyyəti;

4.7. əkinçilik, növbəli suvarma, bitki mühafizə xidməti və məhsul yığımı;

4.8. neft və qazın hasilatı, emalı, saxlanması və satışı;

4.9. neft və qazın boru kəmərləri vasitəsilə ötürülməsi;

4.10. metallurgiya sənayesi üzrə fəaliyyət;

4.11. tikinti və məişət avadanlıqlarının istehsalı və təmiri;

4.12. mühəndislik və layihələndirmə xidmətləri;

4.13. mülki və sənaye təyinatlı bina və qurğuların, yolların tikintisi və təmiri;

4.14. qablaşdırma məhsullarının istehsalı;

4.15. daş, metal və taxta məhsullarının istehsalı;

4.16. mebel istehsalı və təmiri;

4.17. diri heyvanların kəsimi.

**5. Pərakəndə və topdan satış üzrə:**

5.1. ərzaq məhsullarının satış məntəqələri;

5.2. apteklər;

5.3. yanacaqdoldurma məntəqələri;

5.4. zoomağazalar, o cümlədən heyvanlar üçün yem satış məntəqələri;

5.5. tikinti materiallarının və məişət xırdavatlarının satışı məntəqələri;

5.6. onlayn satışlar.

**6. Məişət xidmətləri üzrə:**

6.1. məişət tullantılarının yığılması və utilizasiyası;

6.2. kimyəvi təmizləmə;

6.3. mənzillər istisna olmaqla, yaşayış binalarının təmizlənməsi;

6.4. avtomobillərin təmiri;

6.5. avtomobil yuyulma məntəqələri;

6.6. heyvan sığınacaqları.

**7. Kütləvi informasiya vasitələri.**

**8. Maliyyə təşkilatları üzrə:**

8.1. banklar və bank olmayan kredit təşkilatları, lombardlar;

8.2. investisiya şirkətləri, fond birjaları;

8.3. sığorta təşkilatları;

8.4. ödəniş xidmətləri və klirinq xidmətləri göstərən təşkilatlar.

**9. Xüsusi xidmət növləri üzrə:**

9.1. çatdırılma xidmətləri;

9.2. tərcümə xidmətləri;

9.3. poçt xidmətləri;

9.4. dezinfeksiya xidmətləri.

**10. Vəkillik fəaliyyəti.**

# Müdafiə naziri cəbhəboyu zonada növbəti hərbi hissənin açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar göstərişinə əsasən həyata keçirilən tədbirlər davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada daha bir hərbi hissənin açılışında iştirak ediblər.

Müdafiə nazirinə məruzə olunub ki, hərbi hissədə inzibati və xidməti binalar inşa edilərək mühafizə və yanğın siqnalizasiyası, həmçinin daxili rabitə sistemləri quraşdırılıb. Binadakı konfrans zalı, arxiv və digər xidməti iş otaqları lazımi mebel və avadanlıqla təchiz edilib. Ərazidə zabitlər və əsgərlər üçün yataqxana binaları inşa olunub. Həmin binalar iş, məişət, silah, eləcə də digər xidməti otaqlardan ibarətdir. Hərbi hissənin ərazisində qarovul xidmətinin təşkili məqsədilə qarovul şəhərciyi və qarovul evi də inşa edilib. Tibb məntəqəsi müasir tibbi avadanlıq, mebel və inventarlarla təmin edilib. Burada stomatoloq, fizioterapiya, prosedur və müalicə üçün digər otaqlar mövcuddur. Şəxsi heyətin qidalanması üçün nəzərdə tutulan yeməkxana binası müasir standartlara cavab verən qazanlar, sobalar, soyuducular və digər məişət texnikası, müvafiq mebel və inventarla təchiz olunub. Yeməkxanada soyuducu kamera otaqlarından ibarət ərzaq anbarı var.

Hamam, camaşırxana və qazanxana kompleksi də müasir avadanlıqla təchiz edilib.

Hərbi hissənin inzibati və xidməti binalarının isti su ilə təchizatı üçün nəzərdə tutulan qazanxanada müasir tipli qazanlar və nasoslar, fasiləsiz elektrik enerjisi ilə təminatı üçün isə generator qurğusu və transformator quraşdırılıb.

Ərazidə su təmizləyici qurğu quraşdırılıb, içməli və yanğından mühafizə su anbarları, həmçinin yeraltı su nasosxanası tikilib.

Şəhərcik ərazisinə yaşıllıq zolağı salınıb, müxtəlif növ ağaclar, dekorativ kollar əkilib, ərazidaxili yollara asfalt salınıb.

Hərbi hissəyə yüksəkgərginlikli elektrik, əsas su və təbii qaz xətləri çəkilib.

Əraziyə baxış keçirən Müdafiə naziri şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması məqsədilə komandanlığa müvafiq tapşırıqlar verib.

# Azərbaycan son texnologiyaların tətbiqinə üstünlük verir

## Prezident İlham Əliyevin bu istiqamətdə gördüyü işlər dünyada yüksək qiymətləndirilir

*Əvvəli 1-ci səh.*

Aydındır ki, xarici şirkətlər sərmayə yatıracağı ölkədəki mövcud siyasi sabitliyə, kapitalın qorunmasına verilən hüquqi zəmanətə, həmçinin iqtisadi inkişafın perspektivlərinə diqqət yetirirlər. Qeyd edilən faktorların mövcudluğu xarici sahibkarları Azərbaycan iqtisadiyyatına sərmayə qoymağa təşviq edir.

Prezident İlham Əliyev videokonfrans zamanı əsas məqsədin ölkənin hərtərəfli inkişafı olduğunu bildirərək demişdir: “Bizim bu il üçün çox böyük perspektivlərimiz var idi və ilin birinci rübü çox ümidverici idi. Lakin indi beş ayın nəticələri ümumi daxili məhsulda kiçik azalmanın - təxminən 1,7 faiz azalmanın olduğunu göstərir. Lakin, eyni zamanda iqtisadiyyatın bəzi sektorlarında, xüsusilə neft və qazla əlaqəli olmayan sektorlarda artım qeydə alınıb... Bu proqram növbəti 5 il üçün planlaşdırılır. Eyni zamanda süni intellekt üzrə strategiyanın ətraflı işlənib hazırlanması ilə bağlı məsələlər də bizim gündəliyimizdədir. Kibertəhlükəsizlik hər zaman gündəlikdədir, çünki bu, bütün ölkələrin hazırlıqlı olmalı olduğu məsələdir. İndiyədək bizdə belə böyük hallar olmayıb, lakin heç kim sığortalanmayıb. Ona görə də bu da bizim gələcəyimiz üçün prioritetlər sırasında qalır. Əlbəttə, mən icra olunmuş layihələrin siyahısına baxdım. Aramızdakı əməkdaşlıq çox təsirləndiricidir və əminəm ki, bu, qarşıdakı illərdə tərəfdaşlığımızı gücləndirəcək”.

Dövlət başçısı çıxışı zamanı təhsilə xüsusi önəm verdiyini nümayiş etdirdi. Bildirdi ki, sentyabrın 15-də yeni tədris ili başlanır. Lakin dünyada koronavirus pandemiyasının nə qədər davam edəcəyi bilinmir. Buna görə ən pis ssenariyə hazırlıq görülməlidir. Beləliklə, distant təhsilin tətbiqi qaçılmazdır.

“Microsoft” şirkətinin vitse-prezidenti Filip Roq dövlət başçısının təşəbbüsü ilə bu sahədə görülən işləri yüksək qiymətləndirərək demişdir: “Təhsil mövzusuna gəlincə, zənnimcə, bu, güman ki, bizim əsas nailiyyətlərimizdən biri idi. O mənada ki, biz Sizin təxminən 1 milyon tələbəniz üçün əlaqə qura bilmişik. Düşünürəm ki, o vaxta kimi onların gələcəyinə heç nəyin mane olmamasını təmin etmişik və xoşbəxtlikdən biz evdəyik. Aydındır ki, bu, gələcək üçün vacib investisiyadır”.

Məlumdur ki, indi dünyada kiberhücumlar dövlətlər üçün böyük təhlükə yaradır. Hər bir ölkə bundan sığortalanmaq üçün müvafiq tədbirlər görür. Sözsüz ki, Azərbaycan da bu sahədə istisna deyil. “Microsoft”un vitse-prezidenti, həmçinin bildirdi ki, təmsil etdiyi şirkət bir çox ölkələrdə bu cür hallarda həll yollarının tətbiqini həyata keçirir. Bu məqsədlə tələb olunan zaman insanların infrastruktura təhlükəsiz çıxışını təmin etmək üçün virtual iş masalarının yaradılmasını təmin edib.

Filip Roq, həmçinin kiberhücumların qarşısını almaq üçün hazırladıqları “bulud hesablamaları” sistemi haqqında da dövlət başçısına məlumat verdi. Qeyd etdi ki, bu sistem səmərə və əhəmiyyətinə görə artıq dünyanın bir çox ölkələrində istifadə olunur. Şirkətin vitse-prezidenti, eyni zamanda vurğuladı ki, “Microsoft”un süni intellekt platforması Azərbaycan dilini də tezliklə dərk edəcək. Bu istiqamətdə əməkdaşlıq daha da artacaq.

Prezident İlham Əliyev dünyada müasir texnologiya və innovasiyaların tətbiqinə üstünlük verən dövlət başçısı kimi tanınır. Son texnologiyaları yaradan şirkətlər bu siyasəti yaxından izləyir və ölkəmizlə əməkdaşlığa can atır. Ona görə ki, Prezident İlham Əliyev ölkəmizin gələcək inkişafını yüksək texnologiya və innovasiyalardan istifadə etməkdə görür.

Dövlət başçısı “Microsoft” şirkətinin rəhbərliyi ilə keçirilən videokonfransda bu barədə demişdir: “Azərbaycan artıq sənaye inqilabı üzrə regional mərkəzə çevrilir. Bu dəfə Davos İqtisadi Forumu zamanı cənab Borge Brende və mən Davosun Dördüncü Sənaye İnqilabı üzrə Regional Mərkəzinin Bakıda yaradılması ilə bağlı sənədi imzaladıq. Beləliklə, bu mərkəz nəinki təkcə Azərbaycanı, region ölkələrini də əhatə edəcək. Buna görə düşünürəm ki, bizim üçün daha da irəliləmək və sizinlə innovasiya mərkəzi üzərində çalışmaq təbii olardı. Bizim əsas strategiyamız sizin də bildiyiniz kimi, karbohidrogen ehtiyatlarından asılılığı azaltmaq və innovasiyalar, yeni texnologiyalar və müasir idarəçilik əsasında dayanıqlı inkişafa nail olmaqdır”.

***Rüstəm KAMAL, “Azərbaycan”***

# 9 gündə 3 yeni yarımstansiya

## Bu, Azərbaycanın elektrik enerjisi sisteminin getdikcə gücləndiyinin daha bir göstəricisidir

*Əvvəli 1-ci səh.*

Nəticədə son 16 ildə ölkədə 30-dan çox yeni elektrik stansiyası tikilib, çoxsaylı yarımstansiyalar inşa edilib.

Həyata keçirilən ardıcıl tədbirlər Azərbaycanın həmçinin digər ölkələrə elektrik enerjisi ixrac etməsinə imkan verib. Ölkəmizin bu sahədə qazandığı nailiyyətlər beynəlxalq reytinq təşkilatlarının, o cümlədən Davos Ümumdünya İqtisadi Forumunun da diqqətindən yayınmır və layiqincə dəyərləndirilir.

Bakının Xətai rayonundakı “Əhmədli” yarımstansiyasının açılışında Prezident İlham Əliyevin dediyi kimi: “Son illər ərzində energetika sahəsində çox böyük işlər görülüb, həm generasiya gücləri artıb, eyni zamanda siz itirilmiş gücləri bərpa edirsiniz. Yaxın zamanlarda Mingəçevirdəki İstilik Elektrik Stansiyasının da yenidənqurmadan sonra açılışını edəcəyik. Əslində, bu, yenidən tikilmiş 2400 meqavat gücündə elektrik stansiyasıdır və yarımstansiyaların tikintisi. Məhz buna görə bu gün enerji təminatı ilə dayanıqlılıq əmsalına görə Azərbaycan dünya miqyasında ikinci yerdədir. Özü də bunu biz demirik, Davos Ümumdünya İqtisadi Forumu deyir. Yəni biz bir çox inkişaf etmiş ölkələri də qabaqlamışıq və işlər davam edir. Mənim rayonlara səfərlərim çərçivəsində də yeni yarımstansiyalar açılır”.

Bu enerji obyektlərindən biri yenidənqurmadan sonra istifadəyə verilən 110/35/6 kilovoltluq “Tərtər” elektrik yarımstansiyasıdır. Qurğu Tərtər şəhərinin sosial-iqtisadi təyinatlı obyektlərini, eləcə də ətraf kənd və qəsəbələri, cəbhəyanı hərbi hissələri, suvarma sistemlərini fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin edəcək. Başqa sözlə, yarımstansiyanın istismara verilməsi əhali və qeyri-əhali qruplarından ümumilikdə 18 min 393 abonentin elektrik enerjisinin təchizatını daha da yaxşılaşdıracaq.

“Tərtər” yarımstansiyası Naftalan və Bərdə hava xətləri vasitəsilə əlaqələndirilməklə “Azərbaycan” İstilik Elektrik Stansiyası və “Gəncə” yarımstansiyası arasında dairəvi elektrik təchizat sisteminə qoşulub.

İyun ayında dövlət başçısının iştirakı ilə istifadəyə verilən daha bir enerji obyekti 110/35/10 kilovoltluq “Ağcabədi-2” elektrik yarımstansiyasıdır. İstehlakçıların elektrik təchizatının yaxşılaşdırılması məqsədilə Ağcabədi rayonu ərazisində 35 kilovoltluq yarımstansiyada əsaslı yenidənqurma işləri aparılıb və onun gücü artırılıb.

Yeni yarımstansiya beynəlxalq standartlara cavab verən müasir tipli elektrik avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatik sistemlərlə təchiz edilib, məsafədən idarə olunan SKADA dispetçer sisteminə qoşulub. Yarımstansiyanın 330 kilovoltluq “İmişli” və “Ağcabədi” qovşaq yarımstansiyaları ilə əlaqələndirilməklə dairəvi elektrik təchizat sxeminə qoşulması təmin edilib. Bu, istehlakçıların, xüsusən də əhalinin enerji təchizatının dayanıqlılığını və təhlükəsizliyi artırıb.

Paytaxtın Xətai rayonunda istifadəyə verilən “Əhmədli” yarımstansiyası da 110/35/10 kilovoltluqdur.

“Əhmədli” yarımstansiyası tamamilə yenidən qurulub, burada bütün qurğular ən müasirləri ilə əvəzlənib. Yenidənqurma zamanı yarımstansiya üçün təzə idarəetmə binası da inşa olunub. Yarımstansiya Suraxanı, Xətai və Nizami rayonlarında əhalini, sosial-iqtisadi və sənaye müəssisələrini fasiləsiz elektrik enerjisi ilə təmin edəcək.

Ümumiyyətlə, son illərdə ölkənin şəhər və rayonlarında istifadəyə verilən elektrik stansiyaları və yarımstansiyaları yerləşdikləri ərazinin iqtisadiyyatına və orada yaşayan əhalinin sosial həyatına böyük dəstək göstərir. Son bir ildə təkcə Abşeron regionunda 12 yarımstansiya işə salınıb.

Prezident İlham Əliyev bu sahədə də həyata keçirilən layihələrin davamlı olduğunu bəyan edib: “Bizim bütün elektrik təsərrüfatımız tamamilə yenilənməli və ən yüksək müasir standartlara cavab verməlidir. Bir sıra layihələr başa çatıb, ancaq hələ görüləsi işlər çoxdur, onları da ardıcıllıqla icra edəcəyik”.

***Flora SADIQLI, “Azərbaycan”***

Felyeton

# VİRUSA ÇEVRİLƏN İNSAN

## BUNUN SİMPTOMLARI MƏSULİYYƏTSİZLİK, QURU TƏKƏBBÜR, YALANÇI QORXMAZLIQ, BAŞQALARININ SAĞLAMLIĞINA VƏ HƏYATINA QƏDDARCASINA LAQEYD MÜNASİBƏTDİR

*Əvvəli 1-ci səh.*

Beləliklə, insanların əziyyət çəkməsinə, həkimlərin iş yükünün sürətlə artmasına səbəb olursan, dövlətin bu bəlaya qarşı uğurlu mübarizəsinə əngəl törədirsən!

❖ ❖ ❖

Virus adam başqalarından asanlıqla seçilir.

Küçə ilə gedəndə qabağımıza çıxır!

Avtobus və metroda yanımızda dayanır!

Mağazalarda əksəriyyətdən fərqli hərəkətlər edir!

Xahişlə deyirsən, baxmır!

İradları qəbul etmir!

Qoyulmuş sosial - məhdudlaşdırıcı qaydaları qulaqardına vurur!

*Özünü hamıdan ağıllı, məlumatlı sayır!*

*Hətta başqalarını da koronavirus adlı infeksiyanın mövcud olmadığına, dünyanın "maraqlı dövlətləri" tərəfindən uydurulduğuna inandırmağa çalışır!*

Elə bil ölkələrdə yoluxma hallarının sürətlə artması barədə məlumatları eşitmirlər!

Hər yanda ölüm faktlarının artmasından xəbərsizdirlər!

**Polis nəfərini görəndə isə qaçıb gizlənirlər!**

**Yaxalananda min bir bəhanə və yalan ilə özlərinə bəraət qazandırmağa, güzəştə nail olmağa çalışırlar!**

Virus insanlar nadancasına əl çəkmədikləri inadkarlıqlarına görə dövlətin çəkdiyi xərclərin və gördüyü işlərin səmərəsini azaldırlar!

Sanki lovğalıq mərəzi qulaqlarını kar, gözlərini kor edib!

❖ ❖ ❖

**Dövlətimiz Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fədakar fəaliyyətləri ilə qısa müddətdə çox iş görüb, pandemiyaya qarşı mübarizədə dünyanın nəhəng dövlətlərini bir sıra parametrlər üzrə üstələyib!**

LAP QISA ŞƏKİLDƏ BİR DAHA XATIRLADIRIQ:

■ Dövlət həyəcan təbili çaldı, virusdan necə qorunmaq lazım olduğunu izah etdi və zəruri şərait yaratdı;

■ Xüsusi karantin rejimi tətbiq edərək (Nazirlər Kabineti yanında yaradılan Operativ Qərargah vasitəsilə) insanlara evdə oturmaq icazəsi verdi;

■ Koronavirusa qarşı mübarizə fondu yaradıldı, işə getməyənlərə və işləməyənlərə sistemli şəkildə yardım göstərilməsinə başlandı, bu məqsədlə dövlət büdcəsindən 3,5 milyard manat vəsait ayrıldı;



■ ÜST ilə əlaqə yaradıldı, iki dəfə bu quruma (hər dəfədə 5 mln. dollar həcmində) vəsait köçürüldü, onun tövsiyə və məsləhətlərindən istifadə edildi;

■ Ölkə xəstəxanaları COVID-19-a qarşı mübarizə sisteminə keçirildi, yeni klinikalar, modul tipli xəstəxanalar açıldı, hotellər və istirahət mərkəzləri, Bakı Olimpiya kəndi karantinə alınanlar üçün ayrıldı, yoluxan hər ölkə vətəndaşı həkim nəzarətinə alındı.

GÖRÜLƏN İŞLƏR NƏTİCƏSİNDƏ YOLUXMALARIN SAYI AZALDI, PANDEMİYA SÖNMƏYƏ BAŞLADI:

■Sonra ölkə vətəndaşlarının şüurlu addımlarına bel bağlanaraq yumşalma aparıldı, iqtisadi tempi saxlamaq üçün qabaqlayıcı tədbirlər görüldü;

❖ ❖ ❖

**Prezident İlham Əliyev televiziya vasitəsilə çıxışında qorunma qaydalarına əməl edilməsinin vacibliyini bir daha diqqətə çatdırdı, hamıdan qoruyucu maskalardan istifadə etməsini xahiş etdi!**

**Bəli, xahiş etdi, tələb yox!**

*Məgər bu 3 qaydaya - qoruyucu maska taxmaq, sosial məsafə saxlamaq və şəxsi gigiyena qaydalarına əməl etmək bu qədər çətin və əziyyətlidirmi?*

Bəs virus adamlar nə etdilər?

Prezidentimizin gördüyü işlər hesabına cilovlanmış virusun yenidən əl-qolunu açmağa başladılar!

**Virus adam kimdir, necədir, özünü nə sayaq aparır?**

**Onları bir daha tanıyın:**

■ O, özünü "qəhrəman" sanır, nümayişkaranə şəkildə maska taxmır, sosial təcrid qaydalarına əməl etmir!

■ O, yekəxanadır, üzü maskalıları görəndə ironik təbəssümlə gülümsəyir, sanki "siz qorxaqsınız, mənsə igidəm" demək istəyir!

■ O, məsuliyyətsizdir, qorunmadığına görə yoluxacağı təqdirdə ailə üzvlərini, yaxınlarını, dostlarını, qonşularını və iş yoldaşlarını koronavirus bəlasına düçar edəcəyinin fərqində deyil!

■ O, nadandır, COVID-19-un nə olduğunu anlamayaraq, onun yayıcısına, əlaltısına çevrilir, insanlara əzab və ölüm gətirə biləcəyini anlamır!

■ O, insanlıqdan, rəhm və mərhəmət hissindən uzaqdır, çünki tanıdığı və tanımadığı, doğma və kənar adamların ölümünə bais olacağı barədə düşünmür, vicdanı qarşısında hesabat verməyi bacarmır!

❖ ❖ ❖

**Ay virusa çevrilən virus daşıyıcıları!**

**Özünüzə gəlin, ətrafınıza diqqətlə baxın, dünyada koronavirus epidemiyası ilə bağlı baş verən ciddi dəyişiklikləri anlamağa çalışın!**

**COVID-19 zarafatı, biganəliyi, yalançı qəhrəmanlığı və məsuliyyətsizliyi sevmir!**

O, qarşısına kim çıxsa, ağuşuna alır, boğur, ağciyərini parçalayır!

Onun üçün milli, irqi, cinsi, dini, yaş fərqi yoxdur!

O, amansızdır, içərisində tibb elminin hələ aça bilmədiyi çox sirləri gizlədib!

*Niyə insanlara əzab və ölüm gətirən bəla ilə əməkdaşlıq edirsiniz?*

*Niyə dövlət başçısının, tibb işçilərinin, ağıllı insanların dediklərini eşitmək istəmirsiniz?*

*Niyə çəkilən bu qədər xərci və zəhməti batırmaq istəyirsiniz?*

**Ağıllı olun, virus insanlar!**

**İntizamlı və məsuliyyətli olun, virus insanlar!**

**İnsanlara sevinc, sağlamlıq, xoş günlər gətirməyə çalışın, problem və bədbəxtlik yox!**

**Bəxtiyar SADIQOV**

# Koronavirusa yoluxmaların artımı sərt karantin rejiminin tətbiqini qaçılmaz edir

## Hazırkı vəziyyətdə Azərbaycan dövləti yenidən sərt addımlar atmağa məcburdur

*Əvvəli 1-ci səh.*

Qısa zaman ərzində dövlətin bütün imkanları pandemiyaya qarşı səfərbər olundu. Məhz dövlət tərəfindən vaxtında atılan məqsədyönlü və ardıcıl addımlar, xüsusi karantin rejiminin tətbiqi ilkin mərhələdə ölkədə koronavirusa kütləvi yoluxma hallarının qarşısını ala bildi.

Lakin karantin rejimi mərhələli şəkildə yumşaldıqca insanlar arasında infeksiyaya qarşı laqeydlik, inamsızlıq, xəstələnməyəcəyinə dair arxayınlıq yarandı. Laqeydlik, arxayınlıq məsuliyyətsizliyə gətirib çıxardı. Məsuliyyətsizlik isə yoluxma sayının artmasına rəvac verdi. Nəticədə Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən ölkədə sanitar-epidemioloji vəziyyət təhlil edilərək infeksiyaya yoluxma sürətini azaltmaq, insanların bir-biri ilə yaxın təmaslarını minimuma endirmək məqsədilə ölkə ərazisində xüsusi karantin rejiminin yenidən avqustun 1-dək uzadılmasına qərar verildi. Eyni zamanda virusun ölkə ərazisində geniş yayılmasının qarşısının alınması məqsədilə yükdaşımaları və çarter reysləri istisna olmaqla, ölkə ərazisinə yerüstü və hava yolu ilə giriş-çıxışa tətbiq olunan məhdudiyyət də həmin vaxtadək uzadıldı.

Bundan başqa, 21 iyun saat 00:00-dan 5 iyul saat 06:00-dək Bakı, Sumqayıt, Abşeron, Gəncə, Yevlax, Cəlilabad, Lənkəran və Masallıda sərt karantin rejiminin tətbiqinə qərar verildi. Qərara əsasən həmin ərazilərdə SMS xəbərdarlıq və xüsusi icazə ilə evdən çıxma tətbiq ediləcək. Dövlət və özəl təşkilatlarda işləyənlərlə bağlı məhdudiyyətlər tətbiq olunacaq, yeni işçilər qruplara bölünərək müxtəlif vaxtlarda işə başlayacaq, ticarət mərkəzlərinin, muzey və sərgi zallarının fəaliyyəti, ictimai-iaşə obyektlərində yerində xidmət, bərbərxana-gözəllik salonlarında kosmetik xidmətlər, o cümlədən bu sahədə müştərilərə evində və ya digər məkanlarda xidmətlər dayandırılacaq. Bu müddətdə Bakı metropoliteni və digər ictimai nəqliyyat növlərinin fəaliyyəti məhdudlaşdırılmayacaq, eləcə də bulvar və parklara giriş mümkün olacaq.

### Yoluxmaların artması xəstəxanaların üzərinə ciddi yük düşməsinə səbəb olur

Son günlər Azərbaycanda sutka ərzində qeydə alınan yeni yoluxma hallarının sayının 300-dən aşağı olmaması səhiyyə sisteminin üzərinə düşən yükü artırır. Getdikcə elə bir vəziyyət yarana bilər ki, səhiyyə sistemi bu yükü daşıya bilməz. Xəstəxanaların doluluq səviyyəsi müəyyən edilmiş həddi keçərsə, yeni yoluxan xəstələrin tibb ocaqlarına yerləşdirilməsi ilə bağlı problemlər yarana bilər. Ona görə də ölkədə məhdudlaşdırıcı tədbirlərin gücləndirilməsi, sərt karantin rejiminin tətbiqi zərurəti yaranır. Vətəndaşlar bu qərarların onların sağlamlığının qorunmasına yönələn addım olduğunu dərk edərək məhdudiyyətlərin tətbiqini anlayışla qarşılamalı və ona əməl etməlidirlər.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlı Nazirlər Kabineti yanında Operativ Qərargahın iyunun 18-də keçirilən brifinqində deyib ki, Azərbaycanda epidemioloji vəziyyət qənaətbəxş deyil, ölkə ərazisində xəstəliyin yayılması sürəti yüksəkdir, vəziyyəti ağır olan və intensiv terapiya tələb edən koronavirusa yoluxmuş xəstə çoxdur. Son günlər koronavirusa görə müalicə alan xəstələrin sağalma müddətinin uzanması halları da müşahidə olunur. Belə ki, əvvəllər assimptomatik, yəni simptomları olmayan və ya zəif olan şəxslərdə yeddi günə neqativləşmə qeydə alınırdısa, hazırda bu proses gec gedir. Orta sağalma müddəti 12-14 günədək uzanır. Nəticədə yeni yoluxanlarla sağalanların sayı arasında çox ciddi fərq yaranır, tibb müəssisələrində qalan xəstələrin sayı artır. Bu da xəstəxanaların üzərinə ciddi yük düşməsinə səbəb olur: "Son günlər Bakıdakı xüsusi rejimli xəstəxanalarda 85 faizədək doluluq yaşadığımız vaxtlar olub. Bu, bizi narahat edir. Bu zaman əlavə tibb müəssisələrinin çarpayı fondunun daxil edilməsi zərurəti yaranır. Təbii ki, dərhal digər planlar işə salınır. Hazırlanmış mütəxəssislər cəlb olunur. Modul tipli xəstəxanalardan ilki tam sınaqdan çıxarılıb və fəaliyyətə başlayıb. Plan üzrə paytaxtda və sıxlıq müşahidə olunan digər rayonlarda əlavə xəstəxanalar cəlb edilib, çarpayı fondu genişləndirilib. Məqsədimiz vətəndaşlarımızın heç birinin evdə baxımsız şəkildə qalmaması və onların tibb müəssisələrinə cəlb edilərək müalicə almasıdır".

TƏBİB sədri yaxın günlərdə heç bir simptomu olmayan koronavirus xəstələrinin evdə müalicəsinin tətbiqinə başlanacağını vurğulayıb. Belə ki, həmin şəxslər sahə poliklinikaları tərəfindən müşahidə altına alınacaq. Poliklinikalarda xüsusi elektron xidmət tətbiq olunacaq: "Poliklinik müşahidə altında xəstələrin evdə müalicə olunması ilə bağlı hazırlıq işləri yekunlaşır. Bununla bağlı bir sıra ölkələrin təcrübəsindən istifadə ediləcək. E-təbib mobil tətbiqi hazırlanır və bu sistemlə evdə müalicə olunan xəstələri izləmək mümkün olacaq. Bu şəxslər 12 saatdan bir sorğu ediləcək. Həmin suallara verilən cavablara əsasən qrafik üzrə xəstəliyin gedişatı barədə məlumat toplanacaq. İki həftə müddətində onlar simptomsuz şəkildə olsalar, müalicələrini evdə davam etdirəcəklər".

### "Yenidən sərtləşdirməyə qərar verməyə məcbur olduq"

"Heç bir dövlət, heç bir millət tərəfindən arzu olunmayan vəziyyətlə qarşı-qarşıyayıq. Pandemiyanın bizə diktə etdiyi vəziyyətlə mübarizə aparmaq məcburiyyətindəyik. Bu prosesdə günahkar axtarmaq lazım deyil. Lakin cəmiyyətin bir hissəsinin epidemioloji qaydalara əməl etməməsi hökuməti sərt qərarlar verməyə məcbur edir. Yumşalma mərhələsindən sonra yenidən sərtləşdirməyə qərar verməyə məcbur olduq. Xəstəxanada çarpayıların getdikcə məhdudlaşması, COVID-19-la mübarizədə yeni nəticələr bizi ciddi şəkildə qorxudur. Dövlət başçısının tapşırığı ilə ilkin mübarizə tədbirləri bütün dünya ölkələri üçün nümunə idi. Amma indi yaranmış vəziyyət Azərbaycan dövlətini yenidən sərt addımlar atmağa vadar edir". Bu fikirləri isə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi Təcrübi və Tədris Mərkəzinin rəisi, Operativ Qərargahın tibbi eksperti Rəşad Mahmudov brifinqdə səsləndirib.

R.Mahmudov deyib ki, hələ də cəmiyyətdə həqiqətən koronavirusun olub-olmaması barədə suallara rast gəlirik. Azərbaycan əhalisinin bir hissəsinin koronavirusa inanmadığı halda daha ciddi problemlərlə üz-üzə qala bilərik. Azərbaycan vətəndaşları hamılıqla bunu dərk etməli və mübarizə aparmalıdır: "Səhiyyə ləvazimatlarını nə qədər artırsaq da, bu, effektli deyil. 50 faiz xəstələri itirmək təhlükəsi ilə üzləşə bilərik. Bu qədər məlumat əlimizdə varkən bu məsələdə həssas olmalıyıq. Azərbaycan cəmiyyətinin böyük bir hissəsi pandemiyanın olduğunu qəbul edənə qədər yenidən qadağalara geri dönmələrlə qarşı-qarşıya qala bilərik. Bu xəstəliklə birlikdə mübarizə aparmalıyıq. Həkimlərimiz aylardır dayanmadan xəstəliklə mübarizə aparır. Bu reallığa görə biz özümüz-özümüzü qorumalıyıq. Gələcəyimizə münasibətdə məsuliyyətli olmalıyıq. Biz dünyada bu problemin həll olunmasına inanmalı və mətin addımlarla irəliləməliyik".

Bu gün dünyanı təşvişə salan bu dəhşətli virusdan ən yaxşı qorunma yolu özünütəcriddir. Yalnız məsuliyyətli, vicdanlı olmaqla, gərəksiz yerə evdən çölə çıxmamaqla, özünütəcrid qaydalarına əməl etməklə bu xəstəliyin geniş yayılmasının qarşısını ala bilərik. Durumun nə qədər riskli olduğunu anlamaq lazımdır. Bu çətin və təhlükəli dövrdə həyatımızı, gündəlik vərdişlərimizi evlərə sığdırmağa çalışaq. Çünki hazırda ən təhlükəsiz yer elə öz evimizdir. Evimizdə qalaq, sağlam qalaq!

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Pandemiyaya qarşı bütün imkanlar səfərbər edilib

## Məqsəd kritik vəziyyətə hazır olmaq, ən böhranlı vəziyyətdə belə bütün xəstələrə tibbi xidmətin göstərilməsini təmin etməkdir

**Dünyada pandemiya ilə bağlı vəziyyət getdikcə pisləşir. Koronavirus - COVID-19 infeksiyasının üzə çıxdığı zamandan etibarən ona qarşı görülən tədbirlərin heç biri effektiv olmayıb.**

Karantin rejimlərinin tətbiqi sayəsində müəyyən irəliləyişlər əldə olunsa da, yumşalmalar ərəfəsində yenidən virusla mübarizənin başlanğıcına dönülüb. Məsələn, infeksiya Çində qısa zamanda lokallaşdırılaraq nəzarət altına alınmasına baxmayaraq, son günlər burada yeni koronavirus ocaqları aşkarlanıb və ölkə yenidən COVID-19 təhlükəsi ilə üz-üzə qalıb. O cümlədən də bu mənfi gedişat bir çox digər ölkələrdə də müşahidə olunur.

Bəli, bu bir reallıqdır ki, vaksin tapılmayana qədər "taclı" bəladan tamamilə qurtulmaq qeyri-mümkündür. Hazırda dünyada COVID-19-a yoluxanların sayı 8,5 milyonu ötüb. Virusun qurbanlarının sayı isə 450 mindən çoxdur.

Təəssüf ki, Azərbaycanda da yoluxma və ölüm sayı artmaqda davam edir. Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) iyunun 18-nə olan məlumatına əsasən, Azərbaycanda daha 338 nəfərdə koronavirus aşkarlanıb, 117 nəfər sağalıb, 6 nəfər isə ölüb.

Nə yazıq ki, verilən bu statistikalar hər keçən an mənfiyə doğru sürətlə dəyişir. Bununla yanaşı, infeksiyadan sağalanların sayı da kifayət qədərdir, amma koronavirusun yoluxuculuq sürətini nəzərə alsaq, çox az sayda adamın yoluxması belə ardınca böyük fəlakətlər gətirə bilər.

### Mövcud vəziyyətdən az itkilərlə çıxmaq

Bu cür faciəli ssenarilərin qarşısına keçmək üçün Azərbaycanda virusa qarşı bütün imkanlar səfərbər edilib, xüsusilə də səhiyyə sahəsində.

Üç modul tipli xəstəxananın açılışındakı çıxışı zamanı Prezident İlham Əliyev bir daha vurğuladı ki, Azərbaycan dövləti mövcud vəziyyətdən az itkilərlə çıxmaq üçün əlindən gələni edir və əsas vəzifə insanları xəstəlikdən qorumaq, onların həyatını xilas etməkdir.

Koronavirusun ilk üzə çıxdığı dövrdən etibarən COVID-19 virusunun diaqnostikası, habelə bu xəstəliyin müalicəsi üçün zəruri olan Avropa istehsallı laborator testlər, tibb avadanlıqları və ləvazimatlar, qoruyucu vasitələr Azərbaycana gətirilib, paytaxt və regionlarda xüsusi rejimli xəstəxanalar və karantin zonaları yaradılıb. ÜST və digər beynəlxalq qurumlarla COVID-19 virusu ilə mübarizə çərçivəsində sıx əməkdaşlıq qurulub. Ümumdünya Səhiyyə Təşkilatının Bakı ofisi və Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan xəstəxanalarında COVID-19-a qarşı mübarizə tədbirləri ilə əlaqədar əsas bacarıqları gücləndirmək üçün REACT-C19 layihəsi həyata keçirilib. 19 mütəxəssis Türkiyədə təlim keçərək ölkədəki xüsusi rejimli xəstəxanalarda fəaliyyətə başlayıb.

### Virusun diaqnostikası üçün müasir laboratoriya sistemləri qurulub

Ölkədə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün yeni, ən müasir standartlar səviyyəsində olan əlavə tibbi laboratoriyalar alınıb, diaqnostik alətlər və tibbi ləvazimatlar vaxtında ölkəyə gətirilərək tibb müəssisələrinə təhvil verilib.

Virusun diaqnostikası üçün tibb müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir laboratoriya sistemləri qurulub, onlar Avropa ölkələrinin buraxdığı testlərlə təchiz edilib.

Hazırda ölkədə testlərin aparılması üçün 23 laboratoriya fəaliyyət göstərir və adambaşına keçirilən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir.

Dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə 10 modul tipli yeni xəstəxananın tikintisinə start verilib, martın sonunda istifadəyə verilmiş "Yeni klinika" müasir tibb müəssisəsi koronavirus xəstələrinin müalicəsi üçün ayrılıb. Eyni zamanda virusla mübarizə sahəsində ölkədəki tələbatı qarşılamaq məqsədilə qoruyucu maska və digər zəruri tibbi ləvazimatların istehsalına başlanılıb.

### Bu tibb müəssisələri də karantin xəstəxanasına çevrilib

Hazırda koronaviruslu xəstələrin müalicəsi üçün müəyyənləşdirilən daha 10-dan çox xəstəxana karantin xəstəxanasına çevrilib. TƏBİB-dən verilən xəbərə görə, bunlara Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu, 26 nömrəli Birləşmiş Şəhər Xəstəxanası, Kliniki Tibbi Mərkəz, "Azərsu" Tikinti Xəstəxanası və rayonlarda müəyyənləşdirilən xəstəxanalar aiddir.

Ümumiyyətlə, Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alırlar.

Göründüyü kimi, dövlət koronavirus infeksiyasının qarşısının alınması və yoluxanların müalicəsi istiqamətində bütün imkanlarından istifadə edir. Amma bu vəziyyətdə vətəndaşların da maksimum diqqətli olması, qoyulan qaydalara riayət edərək dövlətə dəstək verməsi vacibdir.

### Peyvənd tapılana qədər bu virusla yaşamağın şərtlərini öyrənib əməl etməsək...

Artıq Azərbaycanda xüsusi karantin rejimi avqust ayının 1-nə qədər uzadılıb və yoluxma sayının çox olduğu bəzi şəhər və rayonlarda 21 iyun 00:00 tarixindən, 5 iyul 06:00 tarixinədək ciddi karantin rejimi tətbiq olunacaq. Bu zaman kəsimində SMS xəbərdarlıq və xüsusi icazə əsasında evdən çıxmaq mümkün olacaq.

Tətbiq olunan karantin rejimləri zamanı qaydalara uymasaq, qapalı məkanlarda maska taxmasaq, sosial izolyasiya saxlamasaq, fərdi gigiyena qaydalarına əməl etməsək, yoluxma sayı ağlasığmaz həddə sıçrayar. O zaman dünyanın super dövlətlərində belə yaşandığı kimi, bizim səhiyyəmiz də çöküb aciz vəziyyətə düşər. Bu sadalananlar kimlərdəsə qorxu hissi yaratmaq üçün deyil. Bunlar faktlardır, indi televiziya ekranlarından başqa ölkələrdə seyr etdiyimiz təəssüfləndirici reallıqlardır. Amma peyvənd tapılana qədər bu virusla yaşamağın şərtlərini öyrənib əməl etməsək, elə biz də bu acınacaqlı gerçəkliklərlə üzləşə bilərik...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# *Operativ Qərargah:* "Azərbaycanın dövlət sərhədində giriş-çıxışa tətbiq olunan məhdudiyyət avqustun 1-dək uzadılır"

Azərbaycan Respublikasının dövlət sərhədində giriş-çıxışa tətbiq olunan məhdudiyyət 2020-ci il 1 avqust tarixinədək uzadılır.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.

Yeni növ koronavirus (COVID-19) infeksiyasının geniş yayılmasının qarşısının alınması üzrə həyata keçirilən tədbirlər çərçivəsində dövlət sərhədində giriş-çıxışa müvəqqəti olaraq tətbiq edilən məhdudiyyətin və beynəlxalq uçuşların təxirə salınma müddəti artırılıb. COVID-19 pandemiyası ilə bağlı dünyadakı vəziyyət təhlil edilərək yükdaşımaları, çarter reysləri və xüsusi reyslər istisna olmaqla, Azərbaycan Respublikası ərazisinə yerüstü və hava yolu ilə giriş-çıxışa tətbiq olunan məhdudiyyət 2020-ci il 1 avqust tarixədək uzadılıb.

# Muxtar respublikada 250 kilometrdən çox yolda dezinfeksiya tədbirləri aparılıb

Muxtar respublikada pandemiyaya qarşı qabaqlayıcı profilaktik tədbirlərə cəlb edilən Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin şəxsi heyəti tərəfindən Ordubad və Culfa rayonlarında ümumilikdə 253 kilometr və ya 2 milyon 72 min kvadratmetr yol və səkilər dezinfeksiya edilib.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, dezinfeksiya tədbirləri Culfa şəhərinin əsas yollarında, Yaycı, Əbrəqunus, Ərəzin və Kırna kənd mərkəzlərində, eləcə də Ordubad rayonunun Unus, Kələki, Dırnıs, Anaqut, Qoruqlar, Başkənd, Vələver, Ağrı, Vənənd, Dizə və Xanağa kəndlərində həyata keçirilib.

Dezinfeksiya işlərinə muxtar respublikanın Fövqəladə Hallar Nazirliyinin 4 yanğınsöndürmə və 1 dezinfeksiya avtomobili, 20 nəfər şəxsi heyəti cəlb edilib.

# Azərbaycanda koronavirusa daha 438 nəfər yoluxub, 133 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 438 yoluxma faktı qeydə alınıb, 133 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 11 min 767 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 6325 nəfər müalicə olunaraq sağalıb, 143 nəfər vəfat edib. Aktiv xəstə sayı 5299 nəfərdir.

# "E-Təbib" mobil tətbiqini yükləyin

"E-Təbib" mobil tətbiqinə qoşularaq COVID-19 infeksiyasının yayılmasının qarşısının alınmasına öz töhfənizi verə bilərsiniz.

### Tətbiqin təsviri

**"E-Təbib" - koronavirusun yayılmasını azaltmağa kömək edən mobil tətbiqdir.**

Bu tətbiq vasitəsilə Siz ictimai yerlərdə olarkən ətrafınızdakı insanların potensial virus daşıyıcısı olub-olmaması barədə xəbərdar ediləcəksiniz. Təsadüfən infeksiyanın daşıyıcısı ilə əlaqəniz olubsa (məsələn, sırada, dükanda və s.), sizə bildiriş göndəriləcək və laboratoriya testinə dəvət ediləcəksiniz.

"E-Təbib" "Bluetooth" texnologiyası əsasında işləyir, yaxınlıqdakı digər tətbiq istifadəçiləri ilə əlaqə qurur.

**Bu tətbiqdən nə qədər çox insan istifadə etsə, bütün yoluxanları daha dəqiq və daha sürətli şəkildə müəyyən etmək mümkün ola bilər.**

Tətbiqin köməyi ilə bir toxunuşla Koronavirus Əleyhinə Qaynar xətlə əlaqə saxlamaq, statistik məlumatlar almaq və müvafiq yardım, həmçinin müxtəlif bildirişlər və xəbərlər də almaq mümkündür.

### Tətbiqə necə qoşulmalı?

Tətbiqi asanlıqla telefonunuza yükləyə bilərsiniz:

- İstifadə etdiyiniz sistemdən asılı olaraq, tətbiqi "Play Market" və ya "App-Store" vasitəsilə "E-Tabib" və ya "E-Təbib" yazaraq smartfonunuza endirin;
- Tətbiqi işə salın və mobil telefon nömrənizi daxil edin;
- SMS vasitəsilə göndəriləcək təsdiq kodunu müvafiq xanalara daxil edin;
- "Bluetooth" qurğusunu işə salın.
- "E-Təbib" tətbiqi mobil telefon nömrənizdən başqa heç bir şəxsi məlumatınızı toplamır.

# *QMİ:* "Koronavirusla bağlı qaydalara əməl etməyən din xadimləri ilə əlaqədar müvafiq ölçü götürüləcək"

Bütün dünyada sürətlə yayılan koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması və onun fəsadlarının qarşısının alınması məqsədilə dövlətimiz tərəfindən bütün mümkün tibbi-sanitar və ictimai təhlükəsizlik tədbirləri həyata keçirilir.

Dini mərkəz - Qafqaz Müsəlmanları İdarəsi (QMİ) ölkəmizdə karantin gündəmə gələn ilk vaxtlardan koronavirusa yoluxma hallarının qarşısının alınması məqsədilə ölkə ərazisindəki bütün məscid və ziyarətgahların fəaliyyətini müvəqqəti dayandıraraq, kütləvi ibadət mərasimlərinə ara verilməsi barədə tapşırıq və tövsiyələrini verdi.

QMİ-nin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumatda deyilir ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyən etdiyi qaydalara uyğun olaraq dəfn mərasimləri məhdud sayda, yaxın qohumların iştirakı və sosial məsafəyə riayət edilməklə həyata keçirilməlidir. Qapalı, yaxud açıq məkanlarda on nəfərdən çox şəxsin iştirakı ilə ehsan verilməsi, yas məclislərinin təşkili və orada din xadimlərimizin iştirakına icazə verilmir. Tövsiyə sənədimizdə bu məqamlar birmənalı şəkildə əksini tapıb. Bütün din xadimlərinə bununla bağlı tərəfimizdən tapşırıq verilib. Bu tövsiyə qərarlarının icrasına QMİ nəzarət edir, tapşırığın yerinə yetirilməsinə yerlərdəki qazilərimiz və səlahiyyətli nümayəndələrimiz məsuldurlar və bu barədə QMİ-yə mütəmadi məlumat verirlər. Bu müvəqqəti çətinlik dövründə tövsiyələrimizi nəzərə almayanlar, təəssüf ki, mövcud vəziyyətin məsuliyyətini dərk edə bilməyənlərdir. Qayda və tövsiyələrə əməl etməyən din xadimləri ilə bağlı hal aşkarlanarsa, QMİ tərəfindən müvafiq ölçü götürüləcək.

QMİ bir daha öz tövsiyələrini diqqətə çatdırır və əmindir ki, dindarlarımız və cəmiyyətimiz hər birimiz üçün təhlükəli olan məqamda tibbi-profilaktik tədbirlərə riayət etməklə yanaşı, vacib saydığımız tövsiyələri anlayışla qarşılayacaq. Ümid edirik ki, Allah-təala tezliklə xalqımızın üzərindən bu bəlanı dəf edəcək, səbat və rifahımız bərqərar olacaq, İnşallah.

Bu çətin və məsuliyyətli dövrdə xalqımızın pandemiya ilə mücadiləsində böyük əzm və mətanət nümayiş etdirən həkimlərimizə, təhlükəsizliyimizin keşiyində duran polis işçilərinə dərin minnətdarlığımızı bildirir, onlara şərəfli fəaliyyətlərində Uca Allahdan uğurlar diləyirik. Bu mürəkkəb dövrdə din xadimləri də öz vəzifələrini böyük məsuliyyətlə yerinə yetirirlər. Öz sağlamlıqlarını riskə ataraq vəfat etmiş insanlar üçün şəriətlə mühüm olan dini vacibatların yerinə yetirilməsini gecəli-gündüzlü həyata keçirməklə fədakarlıq nümayiş etdirirlər. Din xadimləri Azərbaycan xalqının xidmətindədir və bundan şərəf duyur.

Uca Allah Azərbaycanı hifz etsin.

# Müdafiə Nazirliyinin nümayəndə heyəti Milli Qəhrəman Mübariz İbrahimovun məzarını ziyarət edib

Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun torpaqlarımızın müdafiəsi uğrunda canından keçərək şəhidlik zirvəsinə yüksəlməsinin 10-cu ildönümündə Müdafiə Nazirliyinin nümayəndə heyəti igidimizin məzarını ziyarət edib, üzərinə gül dəstələri düzüblər.






Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, anma mərasimində Azərbaycanın tarixən öz qəhrəmanları ilə seçildiyini deyən polkovnik Elvin Əzizov Mübariz İbrahimovun da qanında-canında qəhrəmanlıq və mübarizlik hissinin yüksək olduğunu vurğulayıb. Zabit Milli Qəhrəmanın şərəfli həyat yolundan, onun göstərdiyi şücaət və qəhrəmanlıqdan danışıb. Qeyd olunub ki, qəhrəmanımız qısa ömür yaşasa da, canını vətən yolunda fəda etməsi ilə gənclərə örnək olacaq şanlı bir yol və ad-san qoyub gedib.

Digər çıxış edənlər də şücaəti ilə ömrünün gənclik çağında tarixə və gənc nəslin qəlbinə adını yazan qəhrəmanın ölməzlik qazandığı, ölçüyəgəlməz vətən sevgisinin onu şəhidlik zirvəsinə ucaltdığını vurğulayıblar.

Xüsusi qeyd olunub ki, igidimizin göstərdiyi rəşadət dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək qiymətləndirilib. Mərasimdə vətənimizin azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərin xatirələri yad edilib, məzarları üzərinə tər güllər düzülüb.

# Dövlət komitəsində videokonfrans formatında müşavirə keçirilib

İyunun 19-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) ölkədəki mövcud dini duruma həsr olunmuş videokonfrans formatında müşavirə keçirilib. Videokonfransda DQİDK və tabeliyindəki qurumların rəhbərliyi, eləcə də Mərkəzi Aparat və bölgə şöbələrinin müdirləri iştirak ediblər.

Komitədən AZƏRTAC-a bildiriblər ki, müşavirəni açan DQİDK-nın sədri Mübariz Qurbanlı pandemiyanın qarşısının alınması, onun doğurduğu sosial-iqtisadi problemlərin aradan qaldırılması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən çevik və məqsədyönlü siyasətin, virusa qarşı mübarizənin ilkin mərhələsindən başlayaraq atılan qabaqlayıcı addımların önəminə toxunub. Bildirib ki, dövlət başçısının tapşırığına əsasən yaradılmış Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən koronavirus infeksiyasının yayılmasına qarşı zəruri preventiv işlərin görülməsi, vətəndaşların ölkə Prezidentinin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çağırışlarına qoşularaq bu bəla ilə mübarizədə milli həmrəylik nümayiş etdirməsi, hakimiyyətlə xalq birliyinin mövcud olması, çətin günlərdə insanların mənəvi cəhətdən sıx birləşməsi halları koronavirusa qarşı mübarizədə böyük əhəmiyyət daşıyır.

DQİDK sədri daha sonra dövlət komitəsinin və tabeliyindəki qurumların koronavirus pandemiyası (COVID-19) dövründə sosial sahədə fəaliyyət istiqamətlərinə diqqət çəkib.

Vurğulanıb ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, DQİDK-nın tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun əməkdaşları və könüllüləri xüsusi karantin rejiminin tətbiq olunduğu müddətdə bir sıra sosial layihələrə dəstək veriblər. Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramı çərçivəsində hemofiliya, talassemiya və digər qan xəstəliklərindən əziyyət çəkən uşaqlara yardım məqsədilə Mərkəzi Qan Bankında keçirilən qanvermə aksiyasında iştirak edən qurumların rəhbərliyi və əməkdaşları, eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsünə qoşulublar və könüllü olaraq əməkhaqlarının bir hissəsini Koronavirusla Mübarizəyə Dəstək Fonduna köçürüblər. Həmçinin Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən 140 nəfər tənha yaşlıya, şəhid ailələri və aztəminatlı ailələrə ərzaq yardımı edilib, o cümlədən virusa yoluxmuş xəstələrin müalicəsi ilə məşğul olan bir qrup tibb işçisinə hədiyyələr göndərilib.

Komitə sədri, eyni zamanda, qeyd edib ki, mövcud şəraitdə Nazirlər Kabineti yanında Operativ Qərargahın təlimatına uyğun olaraq Azərbaycanda bütün dini ibadətgahlarda dini ayinlərin icrasının dayandırılması, yas mərasimlərinə qoyulan qadağalar barədə dini maarifləndirmə işlərinin aparılmasına xüsusi diqqət yetirilib. Komitə rəhbərliyinin cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunması, insanların mənəvi cəhətdən sıx birləşməsi istiqamətində müsahibələri, çağırışları, açıqlamaları yayımlanıb. DQİDK əməkdaşları tərəfindən sosial şəbəkələr vasitəsilə virusun qarşısının alınması məqsədilə qoyulan tələblərə əməl etməyə, eləcə də dini rəhbərləri də bu işdən kənarda qalmamağa, dindarlarımızı Operativ Qərargahın bu barədə tövsiyələrini dinləməyə çağırışlar edilib. Bu istiqamətdə dövlət komitəsinin bölgə şöbələri tərəfindən dini icma sədrləri və din xadimlərinin iştirakı ilə onlayn maarifləndirmə tədbirləri keçirilib.

Həmçinin bildirilib ki, vətəndaşların qəbulu martın 17-dən etibarən dayandırılsa da, DQİDK-nın "qaynar xətt"inə, "www.scwra.gov.az" rəsmi saytının "Jivochat" onlayn müraciət proqramına, rəsmi elektron poçt ünvanına və sosial şəbəkələrdəki rəsmi səhifələrinə daxil olan yüzlərlə müraciət cavablandırılıb, vətəndaşların qısa zamanda müvafiq məsələlərlə bağlı məlumat və cavab almaları operativ şəkildə təmin edilib.

Azərbaycan İlahiyyat İnstitutunun (AİI) rektoru Aqil Şirinov çıxışında bildirib ki, pandemiya dövründə təhsil müəssisəsi öz fəaliyyətini onlayn formatda uğurla davam etdirib. İnstitut ölkədə "Microsoft Teams" platforması üzərindən tədris prosesini həyata keçirən ilklər sırasında olub. AİI-nin bakalavriat və magistratura səviyyələri üzrə yaz semestrinin yay imtahan sessiyası da platforma üzərindən onlayn formatda şifahi formada keçirilir. Rektor əlavə edib ki, Azərbaycan İlahiyyat İnstitutunun müəllimləri müxtəlif vebinarlarda aktiv iştirak edib, onların müəllifliyi ilə bir neçə elmi dərslik və 36 elmi məqalə və tezislər çap edilib. O, həmçinin institutun xüsusilə xarici tələbələri cəlb etmək məqsədilə təbliğat kampaniyasına başladığını da qeyd edib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov fond tərəfindən mövcud dövrdə yardım aksiyaları ilə yanaşı, bir sıra layihələrin həyata keçirildiyini qeyd edib. Bildirib ki, "Qarabağ üçün oxu 3" layihəsi təqdim olunub, "Ziyalı işığında" layihəsinə start verilib, "Azərbaycan naminə" esse-yazı müsabiqəsi yekunlaşdırılıb, tanınmış xeyriyyəçimiz Musa Nağıyev və Aprel şəhidlərimizə həsr olunan "Qəlbi zənginlər", Aprel döyüşləri - Böyük zəfərin başlanğıcı adlı videoçarxlar hazırlanıb, o cümlədən bir sıra maarifləndirici kitabların nəşri həyata keçirilib. Eyni zamanda, fondun ASAN radio ilə birgə layihəsi olan "Mənəvi dəyərlər" radioverilişi fəaliyyətini uğurla davam etdirib.

Daha sonra DQİDK-nın Lənkəran, Yevlax və Gəncə bölgəsi üzrə şöbələrinin müdirləri yerlərdə Nazirlər Kabinetinin yanında Operativ Qərargahın təlimatına uyğun olaraq dəfn mərasimləri istisna olmaqla, mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin keçirilməsi barədə qadağalara riayət olunması istiqamətində Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndələri, qazilər və imamlarla birgə vətəndaşlar arasında aparılan maarifləndirmə prosesi barədə danışıblar.

Sonda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaranmasının 19 ilinin tamam olması münasibətilə komitə əməkdaşlarını təbrik edən Mübariz Qurbanlı fəaliyyətində fərqlənən bir qrup əməkdaşın fəxri diploma layiq görüldüyünü diqqətə çatdırıb, hər kəsi dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində daha böyük səylə çalışmağa, multikultural və tolerant ənənələrin təbliği işinə daha böyük töhfələr verməyə səsləyib.

Sonda müzakirə olunan məsələlərlə bağlı müvafiq tapşırıq və tövsiyələr verilib.

# "Əlilliyi olan şəxslərin abilitasiyası qaydası"nın layihəsi hazırlanıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Əlilliyi olan şəxslərin abilitasiyası qaydası"nın layihəsi hazırlanıb və razılaşdırma mərhələsindədir.**




"Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunun 10.6-cı maddəsinə əsasən hazırlanmış layihədə abilitasiya, yəni əlilliyi olan şəxslərin mövcud potensialını maksimum inkişaf etdirməklə, onların sərbəst yaşamaq imkanlarının artırılması ilə bağlı münasibətlər tənzimlənir.

Layihədə abilitasiya tədbirlərinin nazirliyin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Tibbi-sosial ekspert komissiyaları (TSEK) tərəfindən hazırlanaraq təsdiq edildiyi bildirilir.

Qeyd olunur ki, abilitasiya tədbirləri abilitasiya üçün potensial imkan və qabiliyyətlərin qiymətləndirilməsi, abilitasiya nəticələrinin proqnozlaşdırılması və abilitasiya tədbirlərinin müəyyən edilməsi kimi mərhələləri əhatə edir. Əlilliyin müəyyən edilməsindən sonra 10 iş günü ərzində əlilliyi olan şəxsin və (və ya) onun qanuni nümayəndəsinin əks əlaqə vasitələrinin birinə abilitasiya tədbirlərinin hazırlanması üçün vaxt və yer barədə məlumat göndərilir. Əlilliyi olan şəxs əlilliyi ilə əlaqədar gələ bilmədiyi hallarda abilitasiya tədbirləri onun yaşadığı yerdə hazırlanır. Bu tədbirlər hazırlanarkən əlilliyi olan şəxslərin və onların qanuni nümayəndələrinin də fikirləri nəzərə alınır. Hazırlanmış abilitasiya tədbirləri Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminə (MEİS) daxil edilir.

Bildirilir ki, abilitasiya tədbirləri əlilliyi olan şəxslərə münasibətdə ildə bir dəfə, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara münasibətdə isə 6 ayda bir dəfə aparılmış tədbirlərin effektivliyi və hər hansı əlavə və dəyişikliklərin edilməsi zərurətinin olub-olmaması baxımından yenidən nəzərdən keçirilir. TSEK əlilliyi olan şəxsin özünə və (və ya) onun qanuni nümayəndəsinə abilitasiya tədbirlərinin məqsədi, vəzifəsi, proqnozu, sosial-hüquqi səmərəsi və gözlənilən nəticələr barədə məlumat verməlidir.

Layihədə bu tədbirlərin müddətinin əlilliyi olan şəxsin sağlamlığında mövcud olan və əlilliyə səbəb olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntularının ağırlıq dərəcəsindən asılı olaraq TSEK tərəfindən müəyyən edildiyi də əksini tapır.

*"Azərbaycan"*

# Mərkəzi Bank uçot dərəcəsini endirib

Azərbaycan Respublikası Mərkəzi Bankının (AMB) İdarə Heyəti uçot dərəcəsinin 7,25 faizdən 7 faizə endirilməsi haqqında qərar qəbul edib. Faiz dəhlizinin aşağı həddi 6,5 faiz, yuxarı həddi isə 7,5 faiz səviyyəsində müəyyən olunub.

AMB-dən AZƏRTAC-a bildirilib ki, bu qərar pul siyasətinə həsr olunmuş son iclasdan keçən dövrdə illik inflyasiyanın azalması və valyuta bazarında stabilliyin davam etməsi, beynəlxalq konyunkturun nisbətən yaxşılaşması, istehlak tələbinin zəifləməsi və onun inflyasiya gözləntilərinə təsiri nəzərə alınmaqla qəbul edilib.

Faiz dəhlizinin parametrlərinə dair növbəti qərarlar inflyasiyanın elan edilən hədəf intervalında saxlanılması, maliyyə sabitliyinin qorunması və iqtisadi aktivliyin dəstəklənməsi prioritetləri arasında optimal balansın qorunmasına yönəldiləcək.

## İnflyasiyanın dinamikası və inflyasiya gözləntiləri

İdarə Heyətinin pul siyasətinə həsr olunmuş son iclasından keçən dövrdə illik inflyasiya tempi aşağı düşüb. Rəsmi statistikaya görə, may ayında 0,5 faizlik deflyasiya qeydə alınıb, illik inflyasiya 2,9 faiz təşkil edib.

Son 12 ayda inflyasiya ərzaq məhsulları üzrə 5,7 faiz, qeyri-ərzaq məhsulları üzrə 1,4 faiz və xidmətlər üzrə 0,4 faiz olub. Pandemiyanın yaratdığı qeyri-müəyyənliklər fonunda istehlak və investisiya xərclərinin azalması ilə məcmu tələbin daralması başlıca dezinflyasiya amili kimi çıxış edir. Ərzaq inflyasiyasının azalmasına əlavə olaraq kənd təsərrüfatı məhsullarının mövsümi ucuzlaşması və dünya ərzaq qiymətlərində enişin davam etməsi (2020-ci ilin 5 ayında 10,5 faiz) də təsir göstərir.

Real sektor müəssisələri üzrə monitorinqin nəticələri inflyasiya gözləntilərinin son ayda azaldığını göstərir. May ayında aparılmış sorğunun nəticələrinə görə inflyasiya gözləntiləri əvvəlki aya nəzərən qeyri-neft sənayesi, tikinti, ticarət və xidmət sahələri üzrə azalıb.

İyun ayında yenilənmiş proqnozlara görə, mövcud makroiqtisadi siyasət çərçivəsi saxlanmaqla cari ilin sonuna ən çox ehtimal olunan inflyasiya 3-3,5 faizdir ki, bu da hədəf intervalı (4±2 faiz) daxilindədir. İqtisadiyyatda gedən proseslərdən asılı olaraq proqnozlar ilin qalan dövründə müntəzəm yenilənəcək.

## Qlobal mühit və xarici sektor göstəriciləri

Pul siyasətinə həsr olunmuş son iclasdan ötən müddətdə bir çox ölkələrdə karantin rejiminin nisbətən yumşalması, eləcə də geniş fiskal və monetar stimul tədbirlərinin reallaşdırılması iqtisadi bərpaya və bazarlara müsbət impulslar verib. Bununla belə koronavirus pandemiyasının neqativ təsirləri nəticəsində qlobal iqtisadi aktivlik göstəriciləri son dekadaların tarixi minimumlarına yaxın səviyyələrdə qalır.

Tələbin nisbətən artması, eləcə də aprel ayında əldə olunmuş "OPEC++" razılaşmasının yenilənərək icrasının təsiri ilə neft qiymətləri bərpa olmağa başlayıb. İyunun ötən dövründə "Brent" neftinin orta qiyməti 40 dollar olub ki, bu da mayın orta qiymətindən (32,5 dollar) 23 faiz, aprelin orta qiymətindən isə (27,1 dollar) 48 faiz yüksəkdir.

Cari ilin 5 ayında ixracın həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 19 faiz azalsa da, xarici ticarət balansı profisitli qalıb. İdxalda azalma meyilləri xarici balansa tarazlaşdırıcı təsir göstərir. Qeyd olunanları nəzərə almaqla birinci yarımilliyin yekunu üzrə də tədiyyə balansının cari hesabının profisitli olacağı istisna deyil.

## Monetar şərait

Ötən toplantıdan keçən müddətdə likvidlik və kreditləşdirmə şəraitinə pul siyasəti qərarları ilə yanaşı, vahid xəzinə hesabından həyata keçirilən dövlət büdcəsi xərcləri, əhalinin və biznesin dəstəklənməsi üçün tətbiq olunan tənzimləyici güzəştlər təsir göstərib.

Valyuta bazarında vəziyyət may ayında da sabit olaraq qalıb. Mərkəzi Bank tərəfindən keçirilən hərraclarda təklif tələbi üstələyib, tələb başlıca olaraq idxalla əlaqədar olub. Azərbaycanın başlıca ticarət tərəfdaşı olan ölkələrin valyuta bazarlarında vəziyyətin stabilləşməsi manatın nominal və real effektiv məzənnələrinin dinamikasının stabilləşməsi ilə müşayiət olunur.

Pul bazası aprel ayının sonundan bəri 8 faiz artıb, ilin əvvəlindən bəri isə 10,6 faiz azalıb.

Mərkəzi Bankın pul siyasəti alətləri faiz dəhlizi parametrləri çərçivəsində tətbiq olunub. Depozitlərin cəlbi və qısamüddətli notların yerləşdirilməsi üzrə Mərkəzi Bankın təşkil etdiyi hərraclarda tələbin təklifi üstələməsi müşahidə olunub, bu alətlər üzrə gəlirlik faiz dəhlizinin aşağı həddinə yaxınlaşıb.

Manatla yeni əmanət və depozitlər, habelə yeni kreditlər üzrə son ayda faiz dərəcələri fiziki və hüquqi şəxslər üzrə fərqli istiqamətlərdə dəyişib. İyun ayının 1-dən başlayaraq manatla sığortalanan əmanətlər üzrə maksimal faiz dərəcəsinin yüksəlməsinin de-dollarlaşma proseslərinə müsbət təsir göstərəcəyi gözlənilir.

Əhali və biznesin dəstəklənməsi istiqamətində həyata keçirilən tədbirlər, o cümlədən kreditlərin restrukturizasiyası üzrə müraciətlərin icrası, faizlərin subsidiyalaşdırılması və zəmanət dəstəyinin genişləndirilməsi pandemiya şəraitində kreditləşmə şərtlərinin yumşalmasına imkan verir.

## İqtisadi aktivlik

Pandemiyanın Azərbaycanda daxili iqtisadi aktivliyə neqativ təsirləri may-iyun aylarında davam edib. Mərkəzi Bank tərəfindən real sektor müəssisələrinin monitorinqi göstərir ki, qeyri-neft sənayesi, tikinti, ticarət və xidmət sahələri üzrə biznes inam indeksi may ayında neqativ zonada olub.

Cari ilin 5 ayında rəsmi statistikaya görə iqtisadiyyatın baza sahələrində (qeyri-neft-qaz sənayesi və kənd təsərrüfatı) iqtisadi artım davam edib.

Məcmu tələbin bütün komponentlərində azalma qeydə alınıb. Yanvar-may aylarında pərakəndə ticarət dövriyyəsi ötən ilin eyni dövrünə nəzərən 1,7 faiz, o cümlədən əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 14,9 faiz azalıb. Qeyri-neft sektoruna investisiya qoyuluşları 16,7 faiz azalıb.

Hökumətin sosial xərclər üzrə öz öhdəliklərini tam yerinə yetirməsi və əlavə dəstək tədbirləri, sinxronlaşdırılmış makroprudensial tədbirlər iqtisadi aktivliyin daha çox azalmasının qarşısını alır, iqtisadi subyektlərin gəlirlərindəki itkiləri qismən kompensasiya etməyə imkan verir.

## İnflyasiya riskləri

İnflyasiyanın risklər balansı hazırda başlıca olaraq pandemiyanın qlobal iqtisadi aktivliyə və Azərbaycan iqtisadiyyatına təsirləri ilə bağlıdır. Bu təsirlərin dərinliyi və davamlılığı ilə bağlı qeyri-müəyyənliklər yüksək olaraq qalır. Xarici mühitlə bağlı əsas risk neftin qiymətinin yenidən kəskin enişidir ki, bu da COVID-19-a ikinci yoluxma dalğası, ABŞ-la Çin arasında iqtisadi-ticarət münasibətlərinin pisləşməsi və ayrı-ayrı ölkələrdə sosial-siyasi gərginliklərdən irəli gələ bilər. Yeni iqtisadi normallıqların yarandığı bu şəraitdə milli iqtisadiyyatın yenidən balanslaşmasına start verilib. Yenidən balanslaşma xarici mühitdəki dəyişikliklərin daxili mühitə ötürülməsinin hamarlanmasına, iqtisadi aktivlik və məşğulluğun dəstəklənməsi ilə makroiqtisadi və maliyyə sabitliyi arasında balansın qorunmasına imkan verməlidir.

Faiz dəhlizinin parametrlərinə dair növbəti qərarların qəbulu zamanı risklər balansındakı dəyişikliklər, makroiqtisadi sabitlik hədəfləri ilə iqtisadi aktivliyin dəstəklənməsi prioritetlərinin uzlaşdırılması əsas götürüləcək. Mərkəzi Bank bundan sonra da ölkədə makroiqtisadi və maliyyə sabitliyinin qorunması, inflyasiyanın elan edilmiş hədəf çərçivəsində saxlanılması üçün mandatına uyğun olaraq bütün mümkün tədbirləri görəcək.

Bu qərar iyunun 19-dan qüvvəyə minir. Mərkəzi Bankın İdarə Heyətinin faiz dəhlizinin parametrləri barədə növbəti qərarı iyul ayının 30-da ictimaiyyətə açıqlanacaq və bununla bağlı mətbuat konfransı keçiriləcək.

20 iyun Ümumdünya Qaçqınlar Günüdür

# Bəşəriyyətin bitməyən dərdi...

## Münaqişələr davam etməkdə, minlərlə insan isə doğma yurduna qayıtmaq arzusunda qalmaqdadır

**Nə qədər ki, dünyada müharibələr, təqibolunmalar, təcavüzlər, hüququ tapdalananlar var, insanlığa laqeydlik mövcuddur, qaçqınlıq-köçkünlük də olacaq. Bu insanların müxtəlif irq və dinlərə mənsub olmaları da o qədər əhəmiyyət kəsb etmir. Planetin hər tərəfində rast gəlinən bu insanların daha çox müsəlman aləmindən olması da hamıya məlumdur.**





Məcburi köçkünlər öz həyatlarını qorumaq və azadlıq naminə, qaçqınlar isə yad bir ölkəyə üz tutmaqla (məcburi, yaxud öz xoşları ilə, fərqi yoxdur) qeyri-müəyyən gələcək üçün çox vaxt hər şeylərini - evlərini, mülklərini, ailələrini və vətənlərini tərk edirlər. Onların acınacaqlı vəziyyəti bu günün ən böyük faciələrindəndir. Həmin şəxslərin müqəddəratı isə insan hüquqlarını müdafiə problemi kimi bəşəriyyəti narahat etməlidir. Təəssüf ki, illərdən bəridir ki, (əslində isə ictimai quruluşun ilkin formasından indiyədək bu proses davam etdirilib, yəni qaçqın-köçkünlük qaçılmaz olub) insanlar siyasi iğtişaşların, birinin digəri üzərində hakimi-mütləqliyin qurbanlarına çevrilməkdədir.

Qaçqınlar öz günahları ucbatından deyil, özgələrinin iddiasından yaranan məşəqqətli bir həyat sürməli olublar və min təəssüflər ki, bu gün də, dünyanın, az qala, bütün qütblərində qaçqınlıq-köçkünlük problemi bəşəri fəlakət həddinə çatıb. Onların aralarında bütün ixtisas və peşələrə malik olanlar vardır: müəllimlər, hüquqşünaslar, alimlər, siyasətçilər, ixtiraçılar, fermerlər və digərləri.





### Dünyanın məşhurları da qaçqın olublar...

Dünyadakı məşhurların arasında da qaçqınlar az olmayıb. Albert Eynşteyn, Ziqmund Freyd, İspaniyanın sabiq baş naziri Flipp Qonsales, Portuqaliyanın prezidenti Mariu Soareş, Flippinin dövlət başçısı Korason Akino kimi dünyanın ən məşhur siyasi və dövlət xadimləri, alimləri də bu sıraya daxildir. Mixail Barıkin, Marlen Ditrix, Aleksandr Soljenitsın, Bertold Brext, Sun Yat-Sen, Rixard Vaqner, Vüktor Hüqo, Cüzeppe Qaribaldi və Vladimir Nabokovun da həmin kateqoriyaya daxildirlər.

2000-ci ildə BMT-nin Baş Məclisi 20 iyun tarixini Ümumdünya Qaçqınlar Günü kimi müəyyən edən xüsusi qətnamə qəbul edib. Qətnamənin qəbulunda əsas məqsəd evindən, elindən didərgin düşən qaçqın və məcburi köçkünlərin acınacaqlı həyat şəraitini diqqətdə saxlamaq, onların sayının artmasının qarşısını almaq olub. Təəssüf ki, ötən əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ölkəmizi dünyanın ən çox qaçqın və məcburi köçkünü olan ölkələrindən birinə çevirib.

Azərbaycan xalqı bir əsrdə dörd dəfə ermənilər tərəfindən soyqırımına məruz qalıb, 250 mindən çox etnik azərbaycanlı Ermənistandakı tarixi torpaqlarından qovulub Azərbaycana pənah gətirib. Eyni zamanda, 1990-cı ildə Orta Asiyadan didərgin salınmış 50 min nəfərədək Axısxa türkü də Azərbaycanda sığınacaq tapıb.

Ermənistan Dağlıq Qarabağın azərbaycanlılar yaşayan 126 yaşayış məntəqəsini zorla boşaldıb. Məhz bu dövrdə XX əsrin ən faciəli hadisələrindən biri törədilib - 6000 nəfər azərbaycanlının yaşadığı Xocalı şəhəri bir gecədə darmadağın edilib. Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olunub, Dağlıq Qarabağdan, ətraf rayonlardan, həmçinin Ermənistanla və ya Dağlıq Qarabağla həmsərhəd olan yaşayış məntəqələrindən 700 minədək azərbaycanlı öz daimi yaşayış yerindən məhrum olaraq respublikanın 62 şəhər və rayonunda məskunlaşıb. Hərbi təcavüz nəticəsində 20 min azərbaycanlı həlak olub, 100 min nəfər yaralanıb, 50 min insan müxtəlif dərəcəli xəsarət alıb.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının bu ilin əvvəlinə olan məlumatına görə, 4009 Azərbaycan vətəndaşı münaqişə zonasında itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Onlardan 56-sı uşaq, 327-si qadın, 364-ü qocadır. Azərbaycan vətəndaşlarından 1409-u erməni əsirliyindən azad edilib. İtkin düşmüş vətəndaşlardan 877-nin əsir, yaxud girov götürülməsi faktı beynəlxalq təşkilatlardan, o cümlədən Beynəlxalq Qırmızı Xaç Komitəsindən gizlədilib. Həmin şəxslərin siyahısı erməni əsirliyindən qayıtmış vətəndaşlarımızın və digər mənbələrin şahid ifadələri əsasında tərtib edilib.

Hazırda Azərbaycanda 1 milyondan çox qaçqın, məcburi köçkün həyatını yaşayan şəxs var. Azərbaycan dövləti öz yurdlarından didərgin düşən soydaşlarımızın problemlərinin həllini hər zaman bir nömrəli vəzifəsi hesab edib. Bu problemlərin həlli istiqamətində Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi irimiqyaslı tədbirlər xüsusi önəm kəsb edib. Ümummilli Liderin 1993-2003-cü illərdə problemin siyasi yolla həlli istiqamətindəki fəaliyyəti, qaçqın və məcburi köçkünlərə daimi diqqət və qayğısı, çadır düşərgələrinin ləğvi istiqamətində atılan ilk addımlar sonrakı işlər üçün təməl olub. Ulu Öndərin 1998-ci ildə qəbul etdiyi Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə uzunmüddətli Dövlət Proqramına əsasən qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı geniş tədbirlərə start verilib, soydaşlarımız üçün yeni qəsəbələr salınmağa başlanılıb.

### Azərbaycanda məcburi köçkünlərə dövlət qayğısı ən yüksək səviyyədədir

2003-cü ildən başlayaraq Prezident İlham Əliyev də bu istiqamətdə işləri ardıcıl və məqsədyönlü şəkildə davam etdirib. Ötən illərdə Azərbaycanın dinamik sosial-iqtisadi inkişafı qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün böyük imkanlar yaradıb, onların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, məşğulluğunun artırılması istiqamətində görülən işlərin miqyası daha da artıb. Prezident İlham Əliyevin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın və sonradan həmin proqrama 2007-ci il 31 oktyabr, 2011-ci il 21 fevral tarixli sərəncamlarla təsdiq olunmuş əlavələrin icrasında uğurlu işlər görülüb.

Fəaliyyətə başladığı ilk gündən etibarən Heydər Əliyev Fondu da qaçqın və məcburi köçkünlərin üzləşdikləri çoxsaylı problemlərin dünya ictimaiyyətinə çatdırılmasına və onların həllinə diqqətlə yanaşır. Ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış "Azərbaycan" portalı bu baxımdan olduqca böyük əhəmiyyətə malikdir. Portalda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən, Xocalı soyqırımından bəhs edən məlumatların yerləşdirilməsi dünya ictimaiyyətinin erməni vəhşilikləri ilə yaxından tanış olmasına şərait yaradır.

### Bütün məcburi köçkünlər öz doğma torpaqlarına qayıdacaqlar

Doğma yurdlarını, ev-eşiklərini Ermənistanın təcavüzkar siyasəti nəticəsində itirməyə məcbur olmuş bir milyondan artıq vətəndaşımızın sosial həyat şəraitinin yaxşılaşdırılması istiqamətində bir sıra qanunlar qəbul edilmiş, dövlət başçısının sərəncamları ilə yeni yaşayış massivləri salınmış, onların mənzil problemlərinin həlli diqqətdə saxlanmışdır. Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin bu il mayın 28-də açılışı zamanı Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev dövlətimizin başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təməli ötən ilin iyulunda qoyulan kompleksdə yaradılan şərait barədə məlumat verərkən bildirdi ki, sifarişçisi "Paşa Holding", podratçısı isə "Kristal Abşeron" MTK olan yeni qəsəbə Lökbatanda istifadəyə verilən "Qobu Park-1" və "Qobu Park-2" yaşayış komplekslərinin yanında inşa edilib. Bütün bu yaşayış komplekslərinin inşası Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilib.

Dövlətimizin başçısı həmin tədbirdə bir daha qeyd etdi ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, bunu deməyə əsas verən bir çox amillər var - bizim hərbi gücümüz və biz bunu göstərmişik: "2016-cı və 2018-ci illərdə uğurlu hərbi əməliyyatlar nəticəsində minlərlə hektar torpaq işğalçılardan azad edildi. Cocuq Mərcanlı kəndinin timsalında biz görürük ki, işğaldan azad olunacaq digər torpaqlarda hansı işlər görüləcək və hansı sürətlə görüləcəkdir. Biz Cocuq Mərcanlını uğurlu hərbi qələbədən sonra cəmi bir il ərzində yenidən qurduq və indi orada həyat qaynayır, köçkünlər öz doğma torpağına qayıdıblar. Bəzən belə fikirlər səsləndirilir ki, bəzi köçkünlər torpaqlar işğaldan azad olunandan sonra qayıtmaya bilərlər. Amma mən tam əminəm ki, bütün köçkünlər öz doğma torpaqlarına qayıdacaqlar, necə ki, Cəbrayıl köçkünləri..."

### Yeni köçkün şəhərcikləri salınır...

Keçən il məcburi köçkünlərə verilən müavinətin həcmi 50 faiz artmışdır. Hər bir məcburi köçkün uzun illərdəki dövlət tərəfindən aylıq müavinətlə təmin edilir. Dünyada bir neçə ölkədə məcburi köçkünlər vardır. Həmin ölkələrin sayı artır. Çünki müharibələr, toqquşmalar genişlənir, yeni köçkün şəhərcikləri salınır. Azərbaycanda bu sahəyə göstərilən diqqət nümunəvi xarakter daşıyır, beynəlxalq təşkilatlar da bunu dəfələrlə təsdiqləyiblər.

Ölkədə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən biri də Ermənistanın təcavüzkar siyasəti nəticəsində doğma yurdlarını, ata-baba torpaqlarını, bir sözlə, gözəl həyatlarını itirərək qaçqın və məcburi köçkünlərə çevrilmiş soydaşlarımızın sosial problemlərinin həllidir. Bununla bağlı dövlət başçısı tərəfindən ümumilikdə 2004-2019-cu illər ərzində 75 fərman və sərəncam imzalanıb, Dövlət Proqramı təsdiqlənib. Həyata keçirilən tədbirlər nəticəsində bu günədək 315 min məcburi köçkünün, yəni, 62 min 494 ailənin mənzil-məişət şəraiti yaxşılaşdırılıb.

Azərbaycan Prezidenti 2003-cü ildə prezident seçkiləri ərəfəsində seçicilərinə verdiyi vədləri bir daha xatırlamaqla, ötən illər ərzində mümkün görülən işlərə aydınlıq gətirmişdi: "... Söz vermişdim ki, beş il ərzində Azərbaycanda bir dənə də olsun çadır şəhərciyi qalmayacaq və nəinki 5 il, 4 il ərzində biz buna nail olduq. Çox böyük uğur idi. Çünki ölkəmizin demək olar ki, bütün yerlərində çadır şəhərcikləri var idi, köçkünlər çox yararsız vəziyyətdə yaşayırdılar, eyni zamanda, uzun illər vaqonlarda, vaqonların altında, çadırlarda yaşayırdılar. Çadır şəhərciklərinin ləğv olunması hesab edirəm ki, bizim çox böyük uğurumuzdur və indiyədək 100-dən çox qəsəbə-şəhərcik salınıb. Son bir neçə il ərzində dünyada iqtisadi və maliyyə böhranı hökm sürür. Son 4-5 il ərzində neftin qiymətinin bir neçə dəfə kəskin düşməsinin şahidi olmuşuq. Buna baxmayaraq, məcburi köçkünlərlə bağlı olan heç bir layihədə heç bir yubanma yoxdur, heç bir proqramın ixtisarı nəzərdə tutulmur. Keçən il məcburi köçkünlər üçün rekord sayda evlər-mənzillər tikildi - 5 minə yaxın. Bu il qarşıya hədəf qoyulub ki, 7 min, bəlkə də 8 min məcburi köçkün ailəsi evlərlə, mənzillərlə təmin edilsin. Əgər biz buna nail olsaq, bir il ərzində həm Bakı şəhərində, Sumqayıt şəhərində və digər şəhərlərdə təqribən 40 minə yaxın insan yeni evlərə köçürüləcək. Bu işlər ardıcıllıqla aparılır. Biz gələn ilin İnvestisiya Proqramında da bu məqsədlər üçün vəsait ayıracağıq".

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri və bu sahədə qəbul edilmiş sənəd və qərarlar əsasında Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həlli üzrə danışıqlar aparılır. Dövlət orqanlarından, beynəlxalq təşkilatlardan alınan müvafiq təkliflər əsasında "Böyük Qayıdış" proqramının layihəsinin hazırlanması üzrə işlər davam etdirilir. Bu, həm işğal olunmuş ərazilərə dəymiş ziyanın dəqiq hesablanmasına, həm torpaqlar işğaldan azad ediləndən dərhal sonra bərpa və yenidənqurma işlərinə başlamağa imkan verəcək.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

Quba Soyqırımı Memorial Kompleksi

# Tarixin torpaqda qalan gizli sirləri

**Uzun illərin yaddaş xronikası bir daha göstərir ki, tarix boyu ermənilər azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmiş, bəd əməllərindən əl çəkməmişlər. XX əsrin əvvəllərində dünyada gedən qarışıq proseslərdən öz xeyirləri üçün istifadə etməyə çalışan bu insanlar öz qəddarlıqları ilə seçiliblər.**





Erməni vəhşilərinin törətdikləri qətliamlar nəticəsində on minlərlə insan həyatını itirmiş, bir o qədər də öz doğma ocağından didərgin düşmüşdür.

Bolşevik-daşnak dəstələri Bakı, Şamaxı, Quba, Kürdəmir, Salyan və Lənkəran qəzaları istiqamətində dəhşətli soyqırımlar törədiblər. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Hamazaspın başçılıq etdiyi quldur dəstələri Quba qəzasının 167 kəndini yandırıb, 16 mindən çox azərbaycanlı öldürüblər. 1918-ci il sentyabr ayının ortalarına qədər davam edən soyqırımında 50 mindən çox azərbaycanlı qətlə yetirilib. Erməni daşnakları qətllərdən əlavə, talanlar edib, minlərlə müsəlmanı və qeyri-millətləri amansız işgəncələrə məruz qoyublar.

Həmin dövrdə Qubada da vəziyyət kəskin xarakter almışdı. İnsanları öz evlərindən çıxarır, əmlakını talan edirdilər. Etiraz edənləri həmin andaca qətlə yetirirdilər. Onlar Qubada sakinləri ağaclardan asır, uzun müddət onlara heç kimin yaxınlaşmasına imkan vermirdilər.

Tarixi faktlar bəzən sırf təsadüf nəticəsində açılır. Qubada idman meydançası üçün ərazi hazırlananda Qudyalçayın sağ sahilində üst-üstə qalaqlanan insan sümükləri ilə dolu iki quyu aşkar olundu. Böyük quyunun diametri 5, kiçik quyunun diametri 2,5 metr idi. Quyular arasında 2 metr məsafə vardı. Aşkar edilmiş insan cəsədlərinin əksəriyyəti uşaq və qadınlara aiddir. Skeletlərin bütöv halda tapılmaması insanların öldürüldükdən sonra şaqqalanaraq quyuya atıldığını göstərir. Odur ki, qurbanların sayı kəllə sümükləri ilə müəyyən olunub. Onların tədqiqatı zamanı ölüm faktının nə vaxt baş verdiyi dəqiqləşdirilib. Qubada tapılan sümüklərin tərkibindəki nəmliyin miqdarı ölüm tarixinin ötən əsrin ikinci onilliyinə aid olduğunu üzə çıxarıb. Məzarlıqda azərbaycanlılarla birlikdə ləzgilər, yəhudilər, tatlar və digər millətlərin 400-dən artıq nümayəndəsi qətlə yetirilərək basdırılmışdı. Alimlər belə nəticəyə gəliblər ki, quyu və arxlarda basdırılan insan cəsədləri 1918-ci ildəki Quba qırğınının qurbanlarıdır.

Bu həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm işlər görülmüşdür. 2013-cü il sentyabrın 18-də Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksinin açılışı olub. Açılışda iştirak edən Prezident İlham Əliyev demişdir: "...Burada nümayiş etdirilən eksponatlar bizim tariximizi göstərir. Eyni zamanda, memorial kompleksdə yaradılmış ekspozisiya çox böyük məna daşıyır. Kompleksin girişində Quba qəzasının dinc vaxtları öz əksini tapır. Ailələr, vətəndaşlar dinc həyat sürürlər. Ondan sonra qanlı günlər, dinc əhaliyə qarşı törədilən vəhşilik əks olunur".

Kompleksin bütün bölmələrində quraşdırılan audiobələdçi qurğuları vasitəsilə ingilis, rus və Azərbaycan dillərində ətraflı məlumat almaq mümkündür. Abidə-muzeyin ekspozisiyasında 1918-ci ilin mart-iyul aylarında Bakı quberniyasının 5 qəzasında - Bakı, Şamaxı, Quba, Göyçay və digər ərazilərdə müsəlman əhalinin soyqırımı tarixi öz əksini tapıb. Ekspozisiya 1918-ci il hadisələri ərəfəsində dinc Quba həyatını əks etdirən fotoşəkillərlə başlayır və arxiv sənədləri ilə zəngindir. Muzeydə 1918-ci ilin qanlı hadisələrini tədqiq etmək üçün Azərbaycan Xalq Cümhuriyyətinin Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqında qərarı, komissiyanın sənədləri, habelə 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin ərazisini əks etdirən xəritə, Ümummilli Lider Heydər Əliyevin soyqırımı haqqında sərəncamı yer alır.

Muzey Kompleksdə məlumat mərkəzi, zəngin kitabxana, kompüterlərlə təmin olunmuş oxu zalı da fəaliyyət göstərir. Kompleksin ərazisində Azərbaycan Respublikasının dövlət bayrağı ucaldılıb. Həyətyanı sahədə alma bağı salınıb.

Muzeydə ölkəmizin hər bir qəzasının tarixi faciəsi ayrı-ayrı bölmələrdə zəngin foto, arxiv sənədləri, statistik məlumat və diaqramlarla verilir. İnformasiya üç dildə, hər bölmənin qarşısında quraşdırılan elektron məlumat bazasında öz əksini tapıb. Quba soyqırımını əks etdirən sənədli film zalda davamlı olaraq nümayiş etdirilir. Müxtəlif qəzalarda baş vermiş soyqırımlar zamanı kütləvi şəkildə xüsusi qəddarlıqla öldürülmüş insanların əksəriyyəti yandırılıb, dənizə, quyulara atılıb və bu səbəbdən onları dəfn etmək mümkün olmayıb. Zalın mərkəzində soyqırımı qurbanlarının xatirəsinə qara mərmər qoyulub.

Quba Soyqırımı Memorial Kompleksi dağlıq ərazidə yerləşir. Kütləvi məzarlığın yerləşdiyi məkanı sel sularından qorumaq məqsədilə Qudyalçayın məcrası boyu 400 metr uzunluğunda qoruyucu beton bənd də inşa olunub. Kompleksin 3,5 hektarlıq ərazisində geniş quruculuq işləri həyata keçirilib. Onu da qeyd edək ki, Quba Soyqırımı Memorial Kompleksi dövlət başçısının sərəncamı ilə erməni cəlladlarının yüzlərlə günahsız insanı qətlə yetirib quyulara doldurduğu yerdə ucaldılıb.

Kompleksin dörd tərəfində qoruyucu tədbirlər görülüb. Quyuların açıldığı yerdə kütləvi məzarlıq saxlanılırdı. Məzarlıq hissədə açıq havada qalan sümüklərin çürüməsi, torpağın eroziyaya uğraması və sürüşmə hallarının aktivləşməsi müşahidə olunurdu. Dövlət başçısının müvafiq tapşırığı ilə yaradılan komissiyanın qərarı ilə həmin sümüklər ötən ilin əvvəllərində basdırılaraq üzərində abidə ucaldılmışdır. Kompleksi ziyarətə gələnlər həmin abidənin qarşısında dayanır və ehtiramlarını bildirirlər.

Koronavirusla bağlı xüsusi karantin rejimində də Quba Soyqırımı Memorial Kompleksi onlayn formada fəaliyyətini davam etdirir. Kompleksin direktoru Rəxşəndə Bayramova bildirdi ki, təkcə ötən il buranı 100 minə yaxın insan ziyarət edib. Pandemiya dövründə infeksiyanın mədəniyyət müəssisələrində yarada biləcəyi təhlükənin qarşısının alınması və bu sahədə aparılan müvafiq profilaktik tədbirlər həyata keçirilib. Kompleksdə dezinfeksiya işləri aparılmış və bu gün də davam etdirilməkdədir.

Öyrənirik ki, mart ayından Quba şəhərində "Soyqırımı Memorial Kompleksi" virtual fəaliyyətə başlayıb. Sosial şəbəkələrdə mütəmadi olaraq seminarlar, layihələr, soyqırımı hadisələri barədə tarixi faktlar və məlumatlar paylaşılır. Həmin şəbəkələrdə təcrübəli mütəxəssislər tərəfindən ayrı-ayrı bölmələr üzrə virtual ekskursiyalar (4 dildə - Azərbaycan, ingilis, rus və ərəb) izləyicilərə təqdim edilir. Virtual fəaliyyət zamanı təşkil edilmiş "Tarixi filmlər" layihələri çərçivəsində kompleksin 5 videoçarx və qısametrajlı filmlər, "Evdəqal-Elmdən qalma" layihəsi çərçivəsində tarixçi alimlərin, tədqiqatçıların iştirakı ilə 4 elmi onlayn video məruzələr müxtəlif sosial şəbəkələrdə paylaşılıb. "Soyqırımlar insanlığa - bəşəriyyətə qarşı cinayətlərdir", "Azərbaycanın multikultural mühiti" layihələri çərçivəsində 10 mövzu ətrafında virtual yayımlar olmuş, tariximizin araşdırılması istiqamətində dəyərli işlər görülmüşdür.

Kompleksin beynəlxalq əlaqələri də genişlənməkdədir. Rəhbərliyin təşəbbüsü ilə "Azərbaycanlılara qarşı törədilmiş soyqırımlar" ,"Ölkəmizdə multikultural dəyərlər-etniklərin tarixi" layihələri ətrafında diskussiyalar aparılmış, Skandinaviya ölkələrində, o cümlədən Finlandiya, İngiltərə, Fransa, Almaniya, Amerika, Yunanıstanda yaşayan soydaşlarımızın iştirakı ilə virtual seminarlar təşkil edilmişdir. Kompleksin elektron poçtuna hər gün onlarla məktub gəlir. Dünya ictimaiyyətinə ingilis dilində bukletlər, məlumat xarakterli bilgilər göndərilir. Kompleks barədə informasiyalar xarici informasiya agentlikləri tərəfindən həmin andaca oxunur və həqiqətlərin açılmasında açar rolunu oynayır.

Quba Soyqırımı Memorial Kompleksindəki xatirə kitabı minlərlə insanın ürək sözləri ilə zəngindir. 2009-cu ildə kanadalı M.Hadirel Qubada olarkən məzarlıqda gördüklərindən dəhşətə gələrək xatirə kitabına erməni faşistlərinə nifrətini bircə cümlə ilə belə ifadə edib: **"Bunları törədənləri Allaha tapşırmaq lazımdır, çünki onların öhdəsindən yalnız O, gələ bilər".** Onların içində başqa biri belə yazır: **"Bütün bunları törədən insan əməli deyil. Çünki insan bunları edə bilməz. Təki elə bir gün gəlsin ki, hamılıqla qanları yer üzünə çətir kimi çəkənlərin sonunu görək. Allah onu bizlərə qismətləsin!"**

Bəli, 100 illik bir zaman kəsiyində bu günün baxışı bizi yandırır. Amma ölkəmizin üzərində qətliamların tarixi müasir dövrümüzə ayaq açıb. Bu gün torpaqlarımızın 20 faizi ermənilər tərəfindən işğaldadır. Və müharibə bu gün də davam edir. Amma xalqımız əmindir ki, tezliklə vətənimizin üzərindən qara buludlar çəkiləcək və zəfər nəğmələri həsrətə üstün gələcəkdir.

***Akif ƏLİYEV, "Azərbaycan"***

# "Azərişıq" ASC qabaqlayıcı tədbirlər həyata keçirib

**İstehlakçıların fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi məqsədilə bütün qabaqlayıcı texniki və təşkilati tədbirlər həyata keçirilib.**

Koronavirus (COVID 19) pandemiyası ilə əlaqədar Operativ Qərargahın iyunun 21-dən iyulun 5-dək Bakı, Sumqayıt, Abşeron, Gəncə, Yevlax, Cəlilabad, Lənkəran və Masallıda xüsusi məhdudiyyətlərin tətbiq olunması qərarı ilə əlaqədar olaraq "Azərişıq" ASC gücləndirilmiş iş rejimində fəaliyyətini davam etdirəcək.

Karantin günlərində istehlakçılara fasiləsiz və dayanıqlı elektrik enerjisinin verilişinin təmin edilməsi məqsədilə bütün qabaqlayıcı texniki və təşkilati tədbirlər həyata keçirilb. Baş verə biləcək qəzaların operativ qaydada aradan qaldırılması üçün bütün ölkə üzrə operativ qəza xidmətləri fəaliyyət göstərir. Həmçinin abonentlərimiz xüsusi karantin günlərində elektrik enerjisindən istifadəyə görə yaranmış borcu evdən çıxmadan onlayn qaydada ödəyə bilər. Bunun üçün azərişıq.az saytında müvafiq bölməyə daxil olmaq kifayətdir. "Smart" sayğacdan istifadə edən istehlakçılara da tövsiyə olunur ki, əvvəlcədən sayğacların balansını yoxlasınlar və öncədən balanslarını artırsınlar.

Yarana biləcək hər hansı bir nasazlıqda istehlakçılarımızdan dərhal "199" Çağrı Mərkəzinə müraciət etmələri xahiş olunur. 24 saat fasiləsiz fəaliyyət göstərən "199" Çağrı Mərkəzinə daxil olmuş təklif və şikayətlər dərhal icraya yönəldilir. İstehlakçı məmnuniyyətini əsas hədəf seçən cəmiyyətimizə edilmiş hər bir müraciətə operativ reaksiya verilir.

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 22.06.2020-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## BİLDİRİŞ

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası akademiya üçün maşın, avadanlıq və ləvazimatların satın alınması məqsədilə 13 may 2020-ci il tarixdə keçirdiyi açıq elektron tender prosedurunda "AzServices" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "İdarənin saxlanılması ilə bağlı yuyucu vasitələrinin satın alınması" və "İdarənin saxlanılması ilə bağlı təsərrüfat mallarının satın alınması" ilə əlaqədar keçirilən açıq tenderlərdə "Kəmər Qaya" MMC qalib olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqavilələri bağlanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən "Protez-ortez məmulatları və ortopedik ayaqqabıların istehsalında istifadə olunan köməkçi mal-materialların satın alınması" üzrə keçirilmiş açıq tenderlərin qalibi "KASTELLUM INCORPORATED" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez-Ortopedik Bərpa Mərkəzi tərəfindən "Protez-ortez məmulatları və ortopedik ayaqqabıların istehsalında istifadə olunan dəri və yapışdırıcı vasitələrin satın alınması" üzrə keçirilmiş açıq tenderlərin qalibi "MERKATOR İNCORPORATED" Məhdud Məsuliyyətli Cəmiyyəti olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

30.04.2020-ci il tarixdə Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamenti tərəfindən keçirilmiş LOT 1 "Kommunal təyinatlı maşın və mexanizmlərin alınması" satınalması üzrə açıq tenderdə "Improtex Trucks and Buses" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## Azercell abunəçilərinin nəzərinə

20 iyul 2020-ci il tarixdən etibarən aşağıdakı cədvəldə göstərilən ölkədə həm fakturalı xətt, həm də fakturasız (SimSim) xətt sistemlərinə aid nömrələrdə, rominq xidmətində istifadəyə görə rominq sazişi mövcud olan operatorlar üzrə vahid xidmət haqları tətbiq ediləcək.

| Ölkə | Bütün istiqamətlərə edilən zəngin hər bir dəqiqəsinə görə xidmət haqqı | Mobil İnternet xidmətinin hər bir MB görə xidmət haqqı |
|---|---|---|
| TANZANİYA | 6.00 | 11.00 |

**Qeyd: Abunəçilər Rominq xidməti, tarifləri, həmçinin Rominqdə İnternet Paketlərinin sifarişi və istifadə şərtləri, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.**

## Sumqayıt Şəhər İcra Hakimiyyəti

## 2020-ci ildə 311150 - "Maşın və avadanlıqlar" maddəsi üzrə satınalınan bütün növ elektroavadanlıqların satın alınması məqsədilə

## *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir.

Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı 200 manatdır.**

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab №: AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu 7y**
**İqtisadi təsnifat 142330**
**VÖEN: 2900054881**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **24 iyul 2020-ci il saat 15:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **05 avqust 2020-ci il saat 15:00-a** qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri **06 avqust 2020-ci il saat 15:00-da** Portalda açılacaqdır.

Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

*Tender komissiyası*

## BİLDİRİŞ

## *"Azərneftkimyaquraşdırma" ASC səhmdarlarının nəzərinə*

"Azərneftkimyaquraşdırma" ASC-nin səhmdarlarının illik Ümumi Yığıncağı 25 iyun 2020-ci il saat 14:00-a təyin edilmişdi. Lakin Azərbaycan Respublikasında 21 iyun saat 00:00-dan 5 iyul 06:00-dək tətbiq edilən sərt karantin rejimi ilə əlaqədar illik Ümumi Yığıncaq qeyri-müəyyən vaxtadək təxirə salınmışdır.

ASC ümumi yığıncağın keçiriləcəyi tarixlə bağlı əlavə məlumat verəcəkdir.

*İdarə Heyəti*

## BİLDİRİŞ

Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi dəftərxana və təsərrüfat mallarının satın alınması məqsədilə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsini həyata keçirmiş və müsabiqənin qalibi "KƏMƏR QAYA" MMC müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

# Prokurorluq Kür çayında boğularaq ölən vətəndaşla bağlı məlumat yayıb

**Prokurorluq Kür çayının Sabirabad rayonu ərazisindən keçən hissəsində itkin düşən şəxsin meyitinin tapılması ilə bağlı məlumat yayıb.**

Sabirabad Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, iyunun 18-də saat 17 radələrində Kür çayının Sabirabad rayonunun Bulduq kəndi ərazisindən keçən hissəsində 2006-cı il təvəllüdlü Emil Məmmədovun çimərkən boğularaq ölməsi və meyitinin itkin düşməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

Prokurorluq əməkdaşları tərəfindən dərhal hadisə yerinə baxış keçirilib, izahatlar alınıb və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

E.Məmmədovun meyitinin aşkar edilməsi istiqamətində Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Xidmətinin Muğan dalğıc-axtarış qrupu tərəfindən dərhal axtarışlara başlanılıb və meyit iyunun 19-da aşkarlanaraq müayinə olunması üçün Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Sabirabad rayon şöbəsinə təhvil verilmişdir.

Hazırda faktla bağlı araşdırmalar davam etdirilir.

# Atəşkəs rejimi 22 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Füzuli rayonunun işğal altında olan Qaraxanbəyli kəndi yaxınlığında, həmçinin Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az

20.03.1969-cu ildə mərhum Əzizağa Yaqub oğlu Bağırovun adına Qasım İsmaylov (Zərgərpalan) küçəsi dalan 3, ev 3 ünvanına verilmiş Çıxarış itdiyi üçün etibarsız sayılır.

**ALLAH RƏHMƏT ELƏSİN!**

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi İnam Həsənova anası

ƏSLİ HƏSƏNOVANIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7407
Sifariş 1539
Qiyməti 40 qəpik